YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
12 fevral 2026-cı il, cümə axşamı
№ 027 (7094)
Qiymәti 60 qəpik

Milli azadlıqdan şirin nemət yoxdur!



# Tərəfdaşlarımıza ciddi mesaj:

## Azərbaycan bu sahəni prioritet sayır

Bax səh. 2

# Ölkəmiz sülh prosesinə töhfə vermək əzmindədir

Bax səh. 2



Bax səh. 3

# ABŞ-Azərbaycan: strateji tərəfdaşlığın yeni geosiyasi arxitekturası

## Yeni münasibətlər sistemi...

Son altı ay ərzində Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. İkitərəfli əlaqələrin həm siyasi müstəvidə, həm də strateji tərəfdaşlıq səviyyəsində genişlənməsi bu mənzərəyə əlavə rəng qatır. Qarşılıqlı səfərlər, yüksək səviyyəli görüşlər, imzalanan sənədlər və verilən mesajlar göstərir ki, Bakı ilə Vaşinqton arasında dialoq artıq epizodik xarakterdə deyil - əksinə, sistemli və uzunmüddətli əməkdaşlıq xətti formalaşmaqdadır. Ötən ilin avqust ayında Vaşinqtonda keçirilən görüşlər və imzalanan sənədlər iki ölkə arasında münasibətlərin yeni səhifəsini açdı. Həmin görüşlərdə tərəflər yalnız mövcud əməkdaşlıq istiqamətlərini deyil...

Bax səh. 4

## Azərbaycan tolerantlıq məkanıdır

Bax səh. 5

## Yeni investisiya bumu

Bax səh. 5

## Merlər Razılaşması Azərbaycanda

Bax səh. 6

## Ukraynada prezident seçkiləri keçiriləcək?



Bax səh. 6

## Müasir dövrün iqtisadi münasibətləri

Amerika Birləşmiş Ştatlarının (ABŞ) Vitse-prezidenti Cey Di Vensin Azərbaycana səfəri ikitərəfli münasibətlərdə yeni səhifə açan hadisə kimi xarakterizə oluna bilər. Cənab Vensin mətbuata bəyanatında səsləndirdiyi mühüm fikirlər dövlətlərimiz arasında iqtisadi münasibətlərin keyfiyyətini bir daha əks etdirməklə yanaşı, qarşıdakı mərhələdə geniş iqtisadi-investisiya layihələrinin icrasına başlanılacağına dair nikbin əminliyi ifadə edir. Bu, həm də ABŞ-Azərbaycan münasibətlərinin gələcəyi üçün çox vacib və fundamental proqramların anonsu kimi də dəyərləndirilə bilər. Bakı və Vaşinqton arasında qarşılıqlı, möhkəm...

Bax səh. 4

# Ölkəmiz sülh prosesinə töhfə vermək əzmindədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Ərəb Parlamentinin prezidenti Məhəmməd Əhməd Əl-Yammahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycanın ərəb dünyasını təmsil edən ölkələrlə siyasi, iqtisadi və digər sahələri əhatə edən sıx əlaqələrinin olduğunu deyərək, münasibətlərin genişləndirilməsində özünün ərəb ölkələrinə, ərəb dövlətlərinin liderlərinin isə Azərbaycana səfərlərinin rolunu qeyd etdi.

Dövlətimizin başçısı ölkəmizin İslam həmrəyliyinin gücləndirilməsinə verdiyi töhfələrə toxundu, bu xüsusda Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarının əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanla Ərəb Dövlətləri Liqası arasında yüksək səviyyədə əlaqələrin qurulduğunu dedi, Məhəmməd Əhməd Əl-Yammahinin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin səmərəli olacağına əminliyini bildirdi.

Qonaq, ilk növbədə, dövlətimizin başçısına qəbula görə minnətdarlığını ifadə etdi.

Ərəb Parlamentinin prezidenti Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdıraraq, regionda və dünyada sülhün bərqərar edilməsində Prezident İlham Əliyevin xüsusi rolunu qeyd etdi və dünyanın dövlətimizin başçısı kimi liderlərə ehtiyacı olduğunu bildirdi.

Prezident İlham Əliyev xoş sözlərə və təbriklərə görə minnətdarlığını ifadə etdi, sülhün əldə olunmasının bütövlükdə regionun inkişafı üçün mühüm əhəmiyyət daşıdığını dedi, sülh gündəliyinin irəli aparılmasında ABŞ Prezidentinin xüsusi roluna toxundu.

Qonaq ərəb dünyasının gündəliyində duran məsələlərdə, o cümlədən Fələstin məsələsində göstərdiyi qətiyyətli dəstəyə görə dövlətimizin başçısına ərəb xalqı adından dərin təşəkkürünü bildirdi.

Azərbaycanın həmişə Ərəb Dövlətləri Liqasının yekdil mövqeyinə uyğun olaraq Fələstin məsələsinin "iki dövlət" prinsipi əsasında həllini dəstəklədiyini vurğulayan Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampın və Misir Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Şarm-əl-Şeyxdə keçirilmiş Yaxın Şərq Sülh Sammitində iştirakını, həmçinin Azərbaycanın Sülh Şurasına dəvət edildiyini məmnunluqla xatırladı, ölkəmizin sülh prosesinə töhfə vermək əzmində olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanın xarici siyasətində müsəlman, o cümlədən ərəb ölkələri ilə əlaqələrin inkişafının prioritet istiqamətlərdən biri olduğunu dedi.

Söhbət əsnasında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa və quruculuq işlərinə toxunuldu. Prezident İlham Əliyev 30 ilə yaxın davam edən işğal dövründə Ermənistan tərəfindən maddi mədəniyyət abidələrimizin, o cümlədən İslam dininə aid abidələrin, məscidlərin dağıdıldığını bildirdi, hazırda onların bərpa olunduğunu qeyd etdi.

Görüşdə Azərbaycanla Ərəb Dövlətləri Liqasının qanunverici orqanı olan Ərəb Parlamenti arasında əməkdaşlığın perspektivlərinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Son dövrdə Azərbaycan-İran münasibətlərinin dinamikasının artması məmnunluq doğurur

## İran İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Məsud Pezeşkiana



Hörmətli cənab Prezident,

İran İslam Respublikasının milli bayramı - İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ortaq dini-mədəni köklər və mehriban qonşuluq telləri ilə bir-birinə bağlı olan xalqlarımız və ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi bizim üçün xüsusi əhəmiyyət daşıyır. Son dövrdə Azərbaycan-İran münasibətlərinin dinamikasının artması məmnunluq doğurur.

Sizin keçən il Azərbaycana həm rəsmi, həm də işgüzar səfərləriniz dövlətlərarası münasibətlərimizin tarixində yeni səhifə açaraq qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafına təkan vermişdir.

Hazırda ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi genişlənir və yeni məzmunla zənginləşir. Müxtəlif səviyyələrdə səfərlərin intensiv xarakteri, imzalanan sənədlər, həyata keçirilən birgə layihələr, o cümlədən Dövlət Komissiyasının səmərəli fəaliyyəti qarşılıqlı maraq doğuran əməkdaşlığımızın dərinləşməsi üçün əlverişli imkanlar yaradır.

İnanıram ki, regionumuzun təhlükəsizliyi və rifahı naminə Azərbaycan-İran əlaqələri və əməkdaşlığı dost və qardaş xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da birgə səylərimizlə möhkəmlənməyə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost və qardaş İran xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

# Tərəfdaşlarımıza da ciddi mesaj: Azərbaycan bu sahəni özü üçün prioritet sayır







# İlham Əliyev: Süni intellektin tətbiqi dövlət qurumlarında geniş vüsət almalıdır

Fevralın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

- Biz bugünkü müşavirədə rəqəmsal inkişafla bağlı olan məsələləri müzakirə edəcəyik, buna ehtiyac var. Bu məsələ bizim gələcək inkişafımızı böyük dərəcədə şərtləndirəcək. Dünyada gedən meyillər, trendlər bəllidir. Bu gün süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edir. Azərbaycanda bu istiqamətdə müəyyən işlər görülüb, bu barədə bu gün danışılacaq. Ən önəmlisi gələcək fəaliyyətimizdə bu məsələni əsas prioritetlər siyahısına daxil etməyimizdir.

Bizim neft-qaz, bağlantılar sahələrində böyük təcrübəmiz var - beynəlxalq şirkətlərlə olan əlaqələr, böyük təcrübəmiz və bir çox ölkələrlə bu nəhəng layihələri icra etməyimiz. Çünki bunlar həm bilik, bacarıq, texniki keyfiyyətlər, eyni zamanda, geniş beynəlxalq əlaqələr tələb edən məsələlərdir. Azərbaycan öz qonşuları ilə müxtəlif vaxtlarda müxtəlif istiqamətlər üzrə bir çox önəmli infrastruktur layihələrini icra etmişdir. Yəni bu sahədə həm təcrübəmiz var, həm də artıq yaradılmış platformalar var. Nəqliyyat, energetika dəhlizləri gələcəkdə fiber-optik dəhlizlərinə də çevrilməlidir. Bu istiqamətdə müəyyən işlər görülüb. Neft-qaz kəmərləri tikilən zaman, o cümlədən bu məsələ də öz həllini tapıb. Ancaq bu, təbii ki, bugünkü tələblərə cavab vermir. Ona görə rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması istiqamətində də bizim təşəbbüslərimiz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin etməlidir. Bizim bir çox üstünlüklərimiz var. Onlardan biri bizim coğrafi vəziyyətimizdir. Bu, bizdən asılı olmayan üstünlükdür. Ancaq hər bir ölkənin coğrafi vəziyyəti onun xeyrinə, yaxud da ki, ziyanına işləyə bilər. Biz coğrafi vəziyyətimizi ölkəmizin inkişafına bağlamışıq və buna nail olmuşuq. Ona görə Asiya ilə Avropa arasında yerləşməyimiz, Şimal-Cənub dəhlizi üzərində yerləşməyimiz və yaradılmış mövcud infrastruktur bu üstünlüyü bizə təmin edir.

Qeyd etdiyim kimi, transmilli böyük şirkətlərlə iş təcrübəmiz - bu da böyük üstünlükdür. Müsbət investisiya iqlimi. Azərbaycan iqtisadiyyatına son 20 il ərzində 350 milyard dollardan çox sərmayə qoyulub. Xarici sərmayələr qorunub - həm qanunlar tərəfindən, eyni zamanda, gündəlik həyatda da görürük. Həm yerli, həm xarici sərmayələrin qorunması hər bir ölkənin inkişafını müəyyən edib, o cümlədən Azərbaycanın. Deyə bilərəm ki, burada da nadir təcrübəmiz var. 30 ildən çox davam edən bizim neft-qaz layihələrimiz necə imzalanıbsa, bu gün elə də icra edilir. Bu təcrübə əlbəttə ki, rəqəmsal dünyada aparıcı rol oynayan şirkətlərlə münasibətlərdə də özünü göstərməlidir.

Digər üstünlüyümüz ondan ibarətdir ki, son illər ərzində aparılan işlər nəticəsində biz öz enerji generasiya gücümüzü böyük dərəcədə artıra bilmişik. Son 20 il ərzində generasiya gücümüz təxminən iki dəfəyə yaxın artıb və bu gün 10 min meqavata bərabərdir. Yeni elektrik stansiyaları, - istər qaz, istər hidro, istər Günəş, külək, - bu gün Azərbaycan reallıqlarını müəyyən edib. Hazırda bizim ən azı 2 min meqavat istifadə edilməyən generasiya gücümüz var ki, rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması üçün bu, başlıca şərtdir.

Onu da bildirməliyəm ki, yerləşdiyimiz bölgədə, geniş bölgədə bu imkanlara malik olan ölkələr ən azı çox deyil və bu gün Azərbaycan özünü bütün əsas enerji mənbələri ilə tam təmin edir, hətta onları dünya bazarlarına da çıxarır. Nəzərə alsaq ki, bizim bərpaolunan enerji növlərinin yaradılması istiqamətində planlarımız göz önündədir,- bu barədə dəfələrlə danışılıb,- gələcəkdə bizim generasiya gücümüz imzalanmış kontraktlar əsasında daha da artacaq. Ona görə biz bu üstünlükdən səmərəli şəkildə istifadə etməliyik. Təbii ki, ölkə daxilində elektrik enerjisinə artan tələbat nəzərə alınmalıdır. Xüsusilə bizim sənaye inkişafı ilə bağlı böyük planlarımız var. Həm əhali artır, həm sənaye istehsalı xüsusilə qeyri-neft sektorunda artır və bu ilin yanvar ayında qeyri-neft sənayemiz təqribən 8 faiz artmışdır. Ona görə bizim enerji güclərimiz ölkənin inkişafını dəstəkləməlidir.

Eyni zamanda, bildiyiniz kimi, xarici tərəfdaşlarla "yaşıl enerji" kabellərinin çəkilişi ilə bağlı müvafiq sənədlər imzalanıb və biz elektrik enerjisinin bir qismini ixrac edəcəyik. Ancaq data mərkəzlərinin yaradılması da dediyim kimi, böyük enerji güclərini tələb edir.

Fiber-optik bağlantılarla əlaqədar qeyd etdiyim kimi, enerji infrastrukturunun yanında bu kabellər də çəkilib. Hazırda bizi Xəzər dənizinin Şərq sahilləri ilə birləşdirəcək fiber-optik kabelin çəkilişi layihəsi icra edilir, ümid edirəm ki, bu il başa çatacaq. Beləliklə, Şərqə doğru bağlantılar təmin ediləcək, Qərbə doğru isə yeni bağlantılar üzərində işləməliyik. Təbii ki, bugünkü müşavirədə müzakirə ediləcək məsələlərin həlli üçün bu da başlıca məsələlərdən biridir.

Digər üstünlüyümüz isə ondan ibarətdir ki, biz bu sahədə dünyanın aparıcı şirkətləri ilə artıq təmaslar qurmuşuq. Bir neçə aparıcı şirkətlə danışıqlar aparılıb, ölkəmizin imkanları onlara təqdim edilib. Eyni zamanda, dünyanın böyük və deyə bilərəm ki, ən böyük maliyyə resurslarını idarə edən qlobal fondlarla bizim sıx əlaqələrimiz var. Azərbaycan Dövlət Neft Fondu uzun illərdir bu təsisatlarla əməkdaşlıq edir və o təsisatlar vasitəsilə Azərbaycanın valyuta ehtiyatlarının bir hissəsi idarə olunur. Biz artıq bu təsisatlara vəsait yatırırıq və onlarla bu yaxınlarda aparılmış danışıqlarda, eyni zamanda, bu qurumlardan Azərbaycana investisiyaların cəlb edilməsi məsələləri də qaldırılmışdır və müsbət cavab alınmışdır. Yəni indi konkret layihələr üzərində işləyirik və rəqəmsallaşma, süni intellekt sahələrində aparıcı şirkətlərin səhmlərinin bir hissəsi də dediyim ən böyük Amerika fondlarının sərəncamındadır. Bu, bizim böyük üstünlüyümüzdür. O cümlədən dünən bu binada Amerika Hökuməti ilə Azərbaycan Hökuməti arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası da bu üstünlüyü bizə təmin edir. Bu Xartiya tarixi bir sənəddir. Bu, artıq mətbuatda da dərc edilib, hər kəs görə bilər nədən ibarətdir, o cümlədən data mərkəzləri, rəqəmsallaşma, süni intellekt və bu sahədəki Amerika şirkətləri ilə sıx əlaqələrimiz. Yəni bu da bizim üstünlüyümüzdür.

Eyni zamanda, bizim Avropa İttifaqına üzv 10 ölkə ilə strateji tərəfdaşlıq sənədləri var. Təbii ki, Avropa şirkətləri bu sahədə Amerika şirkətləri ilə rəqabət apara bilməzlər, onlardan bəlkə ən azı bir nəsil geridədirlər. Ancaq orada da müəyyən işlər görülür və o ölkələrin şirkətləri ilə də səmərəli əməkdaşlıq təmin edilməlidir.

Keçən il isə Çin Xalq Respublikası ilə hərtərəfli Strateji Tərəfdaşlıq sənədi imzalamışıq. Yəni biz bu gün dünyada nadir ölkələrdənik ki, dünyanın aparıcı güc mərkəzləri ilə artıq imzalanmış strateji tərəfdaşlıq formatında çalışırıq. Yəni bu, bizim üstünlüyümüzdür. Dünyada bu qədər üstünlüyü olan ikinci ölkə tapıla bilər, çox axtarsan. Ona görə bundan istifadə etməmək tamamilə qəbuledilməzdir. Bütün bunları nəzərə alaraq, artıq bir müddət bu istiqamətdə işlərin vahid koordinasiyası ilə bağlı məsələlər müzakirə edilir, mənim göstərişimlə bu məsələlər ətrafında fikir mübadiləsi aparılır, bu gün isə mənim sədrliyimlə. Nəzərə alsaq ki, bu məsələ qeyd etdiyim kimi, prioritet təşkil edir, mənim sədrliyimlə bugünkü müşavirədə biz görüləcək işlərlə bağlı konkret fəaliyyət planının hazırlanmasına başlamalıyıq. Tezliklə onu başa çatdırmalıyıq və beləliklə, bu sahəyə daha güclü təkan verməliyik.

Bu gün təqdimatda əsas məsələlər göstəriləcək. Ondan əvvəl bəzi fikir və tapşırıqlarımı diqqətinizə çatdırmaq istərdim. Birinci növbədə, bu sahədə dövlət qurumları arasında çox sıx koordinasiya aparılmalıdır. Burada dövlət qurumları arasında sıx təmaslar olmalıdır, pərakəndəliyə yol verilməməlidir və qısa müddət ərzində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi dövlət qurumları ilə birlikdə tədbirlər planı hazırlamalıdır və mənə təqdim edilməlidir.

Bu məsələdə işlərin daha səmərəli təşkili üçün hesab edirəm ki, hər bir dövlət qurumunda, ilk növbədə, nazirliklərdə rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik üzrə bir müavin ayrılsın, ya yeni ştat vahidi yaradılsın, ya da bu sahə mövcud müavinlərin birinə tapşırılsın ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşları, rəhbərliyi bilsinlər ki, onların təmasda olacaqları şəxslər kimdir və hər bir dövlət qurumunda bu sahə prioritet sayılmalıdır. Bu, bir.

Son illər ərzində müxtəlif dövlət qurumları - nazirliklər və digər dövlət qurumları tərəfindən müxtəlif platforma və tətbiqlər işlənib hazırlanmışdır. Bu işin artıq koordinasiya şəklində aparılması üçün hesab edirəm ki, buna da ehtiyac olmayacaq və yaradılmış platforma və tətbiqlər tədricən ləğv edilməlidir, hansı müddət ərzində, onu indi mənə təkliflər təqdim ediləndə təklif edərsiniz. Dövlət xidmətləri "mygov" üzərindən həyata keçirilməlidir -yəni vahid mərkəzdən. Hər kəs bunu bilməlidir - həm dövlət qurumları, həm vətəndaşlar. Bu, vətəndaşlar üçün də çox böyük üstünlük təmin edəcək. Vətəndaşa lazım olan bütün xidmətlər bir ünvandan göstərilməlidir. İndi buna nə qədər vaxt lazımdır, əlbəttə ki, bunu siz mənə bildirərsiniz. Eyni zamanda, bu gün mövcud olan platformaların üstünlükləri, əldə edilmiş təcrübə və bu platformaların işlənməsində iştirak etmiş şəxslər, kadrlar da ümumi işə cəlb edilməlidir. Yəni mən əldə edilmiş nəticələri qiymətləndirirəm, amma, eyni zamanda, bu gün vaxt gəlib çatıb ki, bu, vahid mərkəzdə birləşsin.

Kadr hazırlığına gəldikdə, bu, əsas vəzifələrdən biridir. Son vaxtlar bu istiqamətdə müəyyən işlər görülür. Biz öz təhsil sistemimizdə bu sahəyə daha böyük diqqət göstərməliyik. Həm Azərbaycanda fəaliyyət göstərən ali məktəblərdə, eyni zamanda, dövlət xətti ilə xaricə göndərilən tələbələr bu ixtisas üzrə peşəkarlığı artırmalıdırlar. Ona görə nəzərə alsaq ki, bu, uzunmüddətli proses olacaq və bu proses ancaq və ancaq genişlənəcək, gələcəkdə bu sahədə kadrlara böyük ehtiyac olacaq. Təbii ki, orta məktəblərdə şagirdlərə ilkin biliklərin aşılanması üçün tədris proqramına da müəyyən dəyişikliklər edilməlidir.

Süni intellektin tətbiqi dövlət qurumlarında geniş vüsət almalıdır. Bu gün bu sahədə aparıcı ölkələrdə bu belədir. Hətta mənə verilən məlumata görə, bu sahədə inkişaf etmiş bəzi ölkələrdə dövlət məmurlarının gündəlik fəaliyyətinə də süni intellekt agentləri, - belə adlandırılır, - kömək göstərir. Çünki burada hər hansı bir qərarın düzgün olub-olmaması ilə bağlı süni intellekt təbii ki, yardımçı ola bilər. Ona görə bu sistemə də baxmaq lazımdır və rəhbər orqanlarında təmsil olunan şəxslər süni intellektdən geniş istifadə etməlidirlər.

Özəl sektora gəldikdə, burada eyni yanaşmanı təmin etmək üçün dəstək mexanizmləri işlənməlidir. Biz özəl sektora bu sahədə hansı formada daha böyük diqqət göstərilməsini təşviq edə bilərik, bu barədə də təkliflər veriləcək.

Kibertəhlükəsizlik üzrə əsas hədəflər müəyyən edilməlidir. Bu sahə də kritik sahələrdən biridir. Biz keçən il çox mütəşəkkil və aqressiv kiberhücuma məruz qalmışıq. Biz onun mənbəyini də bilirik və lazımi tədbirlər də görülmüşdür ki, özümüzü bu ciddi problemlərdən qoruya bilək. Ona görə bu sahəyə ciddi diqqət göstərilməlidir. Bizdə artıq fəaliyyət göstərən Kibertəhlükəsizlik Mərkəzi var, onun işi daim diqqət mərkəzində olmalıdır.

Təbii ki, artıq qeyd etdiyim kimi, bu sahədə dünyanın aparıcı şirkətləri ilə təmaslar daha sıx olmalıdır. Hesab edirəm ki, bugünkü müşavirə və bu məsələnin Prezidentin nəzarəti altında olması bizim bir çox tərəfdaşlarımıza da ciddi mesaj olacaq ki, Azərbaycan bu sahəni özü üçün prioritet sayır. Bizdə olan imkanlar nədən ibarətdir? Mənim sadaladığım üstünlüklər xarici tərəfdaşlarımıza da çatdırılmalıdır. Sadalamadığım üstünlüklər indi siz tərəfdən də çatdırılmalıdır ki, biz bu sahəyə güclü təkan verək.

Qeyd etdiyim kimi, fəaliyyət planı hazırlanmalıdır və mənə təqdim edilməlidir. Bu gün müzakirə edilən və ediləcək, o cümlədən təqdimatda göstəriləcək məsələlər fəaliyyət planına salınmalıdır.

Sonra müşavirə müzakirələrlə davam etdi.



# ABŞ-Azərbaycan: strateji tərəfdaşlığın yeni geosiyasi arxitekturası

## Siyasi reallıqların təsdiqi, regional bağlantıların genişlənməsi, iqtisadi əlaqələrin güclənməsi və təhlükəsizlik əməkdaşlığının dərinləşməsi

Fevralın 10-da ABŞ-ın vitse-prezidenti Cey Di Vensin Bakıya səfəri çərçivəsində Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya imzalandı. Bu sənədin imzalanması iki ölkə arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilir. Xartiya özündə bir sıra mühüm məqamları ehtiva edir - diplomatik əlaqələrin genişlənməsi, strateji iqtisadi münasibətlər sisteminin formalaşdırılması, müasir çağırışlara əsasən dialoqun daha da gücləndirilməsi ilə yanaşı, sənəd həm də Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi reallıqların beynəlxalq müstəvidə qəbulunun göstəricisi sayıla bilər. Qarabağ müharibəsində əldə olunan Zəfərdən sonra regionda yaranmış geosiyasi vəziyyət Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpası ilə xarakterizə olunur. Xartiyanın preambulasında əksini tapan müddəalar Vaşinqtonun bu reallığı nəzərə aldığını və Bakı ilə münasibətləri yeni status və yeni əməkdaşlıq müstəvilərində inkişaf etdirmək niyyətində olduğunu göstərir. Belə ki, regional bağlantılar, iqtisadi sərmayə və təhlükəsizlik əməkdaşlığı da daxil olmaqla, qarşılıqlı maraq və ortaq fayda doğuran sahələrdə strateji tərəfdaşlıqların əhəmiyyəti hər iki ölkə tərəfindən təsdiqlənib. Eləcə də diplomatik, iqtisadi, enerji, texnoloji və təhlükəsizlik sahələri də daxil olmaqla, qarşılıqlı maraq doğuran məsələlərdə münasibətləri gücləndirmək üçün birgə niyyətlər, strateji tərəfdaşlığın və genişləndirilmiş əməkdaşlığın planlaşdırılması və həyata keçirilməsinə yalnız dövlət qurumlarının deyil, həm də hər iki ölkənin özəl sektorlarının cəlb edilməsinin mühüm əhəmiyyəti vurğulanıb.

**Orta Dəhliz və TRIPP: Qlobal bağlantıların strateji xətti**

Sirr deyil ki, yeni dünya nizamı iqtisadi əlaqələri, eləcə də tranzit-logistika imkanlarının genişləndirilməsini prioritet vəzifə olaraq qlobal sistemə ehtiva edir. Azərbaycanın liderliyi ilə formalaşan Şərq-Qərb tranzit sistemi (Orta Dəhliz) beynəlxalq aləm tərəfindən gələcək üçün yeni imkanlar şəklində dəyərləndirilir. Bakının yaratdığı yeni reallıqlara əsasən formalaşan Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya geocoğrafi məkanı günümüzün reallığında aparıcı mövqe tutur. Bu mənada, ABŞ ilə imzalanan Xartiyanın da əsas mahiyyətini təşkil edən amillərdən biri məhz regional bağlantılar, o cümlədən enerji, ticarət və tranzit məsələləridir. Xartiya Trans-Xəzər Nəqliyyat Dəhlizini (Orta Dəhliz) əsas götürərək quru, dəniz və hava nəqliyyatı infrastrukturunun inkişafını, enerji və data bağlantısını, ticarət və tranzitin asanlaşdırılmasını, gömrük nəzarəti və sərhəd keçidini, beynəlxalq multimodal logistikanı və digər əlaqəli sahələrdə əməkdaşlıq yolu ilə regional bağlantıları təşviq etmək üçün birgə işləmək niyyətini ortaya qoyur. Təbii ki, işarə olunan bu nüanslar birmənalı şəkildə Zəngəzur dəhlizi (TRIPP) ideyasının gerçəkləşdirilməsini də təmin edir. Təsadüfi deyil ki, Xartiyada ötən il Vaşinqtonda baş tutmuş Sülh Zirvə Görüşünün Bəyannaməsinə uyğun olaraq Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) əhəmiyyəti əksini tapır.

Bu əlaqələr isə özlüyündə ikitərəfli iqtisadi əlaqələri təşviq etmək məqsədilə biznes mühitinin, ticarət və sərmayə axınlarının inkişaf etdirilməsi istiqamətində çalışmaq niyyətini təmin edir. Diqqət yetirsək, sənəddə:

- Orta Dəhlizin inkişafına xüsusi diqqət ayıraraq enerji, nəqliyyat və rəqəmsal infrastruktur sektorlarında, o cümlədən TRIPP və digər layihələrin inkişaf etdirilməsi vasitəsilə iqtisadi artımı və regional bağlantıları təşviq etmək üçün əməkdaşlığı genişləndirmək;
- Regional bağlantıların əhəmiyyətini qəbul edərək, enerji və nəqliyyat sektorlarına, eləcə də rəqəmsal infrastrukturun inkişafına dövlət və özəl sektor sərmayələrini səfərbər etmək imkanlarını araşdırmaq;
- Enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi Azərbaycanın strateji əhəmiyyətini qəbul edərək, ikitərəfli formatda və üçüncü ölkələrlə tərəfdaşlıq vasitəsilə interkonnektor layihələri kimi birgə layihələrin icrası və təchizat marşrutlarının şaxələndirilməsi istiqamətində neft, qaz və elektrik enerjisi sektorları da daxil olmaqla, enerji əməkdaşlığını genişləndirmək;
- Mülki nüvə əməkdaşlığını dərinləşdirmək;
- Kritik mineralların Orta Dəhliz vasitəsilə qlobal bazarlara tranzitini asanlaşdırmaqla bağlı əməkdaşlıq etmək niyyətləri öz əksini tapır. Bütün bunlar isə multimodal əməkdaşlıq sistemini ortaya qoyur.

**Süni intellekt və rəqəmsal transformasiya: gələcəyin tərəfdaşlıq gündəliyi**

ABŞ ilə Azərbaycan arasında yeni münasibətlər sistemi həm də gələcəyə yönəlimiş yeni əməkdaşlıq sahələrini özündə birləşdirir. Müasir çağırışlara, yeni standartlara əsaslanan əlaqələr iqtisadi sərmayələr üzrə əməkdaşlığın genişlənməsi, xüsusilə Süni İntellekt (AI) və rəqəmsal infrastruktur sahələrini əhatə etməsi, strateji və uzunmüddətli tərəfdaşlığın yeni mərhələyə keçidini ifadə edir. Bu addım innovasiya ekosisteminin gücləndirilməsi, texnologiya transferi, startap mühitinin inkişafı, yüksək ixtisaslı kadr hazırlığı və rəqəmsal transformasiyanın sürətləndirilməsi deməkdir - paralel olaraq məlumat təhlükəsizliyi, bulud texnologiyaları, data mərkəzlərinin qurulması və ağıllı həllərin tətbiqi kimi istiqamətlərdə birgə layihələrin həyata keçirilməsi sənədə əsasən atılacaq addımlar siyahısındadır. Bu əməkdaşlıq Azərbaycanın regional rəqəmsal hab kimi mövqeyini möhkəmləndirəcək, qeyri-neft sektorunun inkişafına təkan verəcək və qlobal texnologiya bazarına inteqrasiyanı sürətləndirəcək.

Xartiyada bildirilir ki, tərəflər iqtisadi və ya ticarət dialoqu platformalarının təşkili imkanlarının araşdırılması da daxil olmaqla, ikitərəfli ticarət və sərmayələri artırmaq üçün strateji fürsətləri müəyyənləşdirmək niyyətindədirlər. Eləcə də özəl sektorun fəal iştirakı ilə ikitərəfli və regional iqtisadi, ticarət və sərmayə əməkdaşlığını inkişaf etdirmək üçün əməkdaşlığı genişləndirmək vacib şərt kimi qarşıya məqsəd qoyulur. Beynəlxalq təcrübələrə əsaslanaraq, özəl müəssisə kapitalının təşviqi, texnoloji inkişafı erkən mərhələdə riskdən azad etmə və kommersiyalaşmanı sürətləndirmə kimi istiqamətlərə yönələn birgə Tədqiqat və İnkişaf (R&D) dəstək alətləri, innovasiya körpü platformaları, eləcə də kibertəhlükəsizlik və süni intellekt sahəsində sektorəsaslı təşəbbüslər kimi məxsusi mexanizmlərin yaradılması gələcək əməkdaşlığın prioritet istiqamətləri kimi müəyyənləşir. Yeni inkişaf mərhələsində rəqəmsal infrastrukturun inkişafı və AI tətbiqi üçün birgə tədqiqat, texnologiyanın mühafizəsi və qarşılıqlı müəyyən edilmiş şərtlər əsasında, hüquqi və tənzimləyici çərçivələrə uyğun olaraq texnologiyaların könüllü ötürülməsi kimi məsələlərin dəstəklənməsi məqsədilə hökumətlərarası səviyyədə və dövlət-özəl tərəfdaşlıqları vasitəsilə əməkdaşlıq ediləcək.

**Sülh və əməkdaşlıq: regional sabitliyin təminində ortaq maraqlar**

ABŞ-ın Cənubi Qafqazda sülh və sabitliyin möhkəmləndirilməsi istiqamətində atdığı addımlar regionda yeni münasibətlər sisteminin yaranmasını şərtləndirdi. Ötən ilin avqustunda Vaşinqtonda keçirilən zirvə görüşü, saziş layihəsinin paraflanması, ATƏT-in Minsk Qrpunun ləğvini təmin edən müraciətin imzalanması sülh prosesinin əsas prinsiplərini müəyyənləşdirərək dialoqu keyfiyyətcə yeni mərhələyə yüksəltdi və davamlı təhlükəsizlik üçün yol xəritəsi ortaya qoydu. Bu, Cənubi Qafqazda sabitliyin davamlı şərtə çevrilməsi ilə yanaşı, həm də yeni inkişaf stimuludur. Vaşinqton açıq şəkildə Azərbaycanın irəli sürdüyü sülh və inkişaf konsepsiyasını dəstəklədiyini ortaya qoyur. bu da təsadüfi deyil. Bakı hər zaman qlobal sülhün təşviqində yaxından iştirak edib və etməkdədir. Azərbaycan qlobal terrorizmə qarşı mübarizədə ABŞ-ın etibarlı tərəfdaşı kimi çıxış edərək illərlə beynəlxalq təhlükəsizlik təşəbbüslərinə fəal töhfə verib. Son olaraq isə bu ilin yanvarında Davosda imzalanan Sülh Şurası Nizamnaməsi qlobal təhlükəsizliyin təminində Bakı-Vaşinqton əlaqələrinin davamlı olduğunu ortaya qoyur.

İmzalanan yeni xartiya iki ölkə arasında bu istiqamətdə uzun illər mövcud olmuş strateji tərəfdaşlığı daha da dərinləşdirərək siyasi, təhlükəsizlik və iqtisadi sahələrdə əməkdaşlığın genişlənməsinə, regionda uzunmüddətli sabitliyin təmininə xidmət edəcək. Sənədi imzalamaqla Vaşinqton bəyan edir ki, Cənubi Qafqazda sülh Azərbaycan qədər ABŞ-ın da ortaq marağındadır. Dövlətlər arasındakı təhlükəsizlik əməkdaşlığı isə hər iki tərəfə, eləcə də beynəlxalq və regional sülh və təhlükəsizliyə fayda verir. Birləşmiş Ştatlar Azərbaycan qüvvələrinin beynəlxalq və regional təhlükəsizliyi irəlilətmək üçün Birləşmiş Ştatlar və koalisiya tərəfdaşları ilə birlikdə xidmət etdiyini nəzərə almaqla, Azərbaycanın beynəlxalq sülhməramlı səylərə verdiyi töhfələri yüksək dəyərləndirir.

Yeni imzalanan sənəd bu əməkdaşlığın həm genişlənməsini, həm keyfiyyətcə yeni bir müstəviyə qalxmasını, eləcə də uğurlu bir şəkildə gələcəyə daşınmasını təmin edəcək. Xartiyada:

- Azərbaycan ilə ABŞ müdafiə sənayesi məhsullarının satışı da daxil olmaqla, müdafiə və təhlükəsizlik əməkdaşlığının əhatə dairəsini genişləndirmək niyyətini ortaya qoyur;
- Terrorizm təhdidinə qarşı birgə mübarizə aparmaq öhdəlikləri nəzərə alınır, mövcud antiterror əməkdaşlığını genişləndirmək niyyəti açıqlanır;
- Paralel olaraq kibertəhlükəsizlik və mühüm infrastrukturun mühafizəsi sahəsində bacarıqları artırmaq məqsədilə əməkdaşlıq arzusu ifadə edilir;
- Nəhayət, Azərbaycanın II Qarabağ müharibəsindən sonra əziyyət çəkdiyi ən mühüm məqamlardan biri - mina və digər partlayıcı maddələrlə çirklənmə səbəbindən üzləşdiyimiz ciddi çətinliklər nəzərə alınır, maliyyə dəstəyi və texnologiya ötürülməsi vasitəsilə humanitar minatəmizləmə sahəsində potensialın artırılmasında əməkdaşlıq etmək qətiyyəti ortaya qoyulur. Bu məqam olduqca vacib nüansdır. O baxımdan ki, bu gün Azərbaycan Cənubi Qafqazın inkişafı, eləcə də yeni iqtisadi-siyasi mühitin formalaşması üçün səfərbər olub. Ərazi bütövlüyümüzün təmini, suverenliyimizin bərpasının ardından işğaldan azad edilmiş ərazilərdə geniş abadlıq quruculuq işləri görülür. Bu, həm də Bakının dünyaya yeni sülh modeli təqdimatıdır. Ərazilərin minamalanması isə işlərin daha sürətli aparılmasına mane olur. Bu minaların partlaması nəticəsində günahsız insanlar hələ də həyatını itirir, xəsarət alır. Statistikaya nəzər salsaq 10 noyabr 2020-ci il tarixindən 7 yanvar 2026-cı il tarixinədək Azərbaycanda mina partlayışları nəticəsində, ümumilikdə, 416 nəfər zərər çəkib. Bu dövr ərzində 71 nəfər həlak olub, 345 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həlak olan 71 nəfərin isə 15-i hərbçi, 56-sı isə mülki şəxsdir. Xəsarət alan 345 nəfərin 178 nəfəri hərbçi, 167 nəfəri isə mülki şəxsdir. Bu isə onu göstərir ki, bu problemin həlli beynəlxalq aləmi yaxından düşündürməlidir. ABŞ ilə imzalanan Xartiyada bu məqamın yerini alması olduqca vacib bir məsələdir.

**İnstitusional mexanizmlər: davamlı dialoq platformaları**

İmzalanan Xartiya ötən 30 ildə Bakı ilə Vaşinqton arasında olan işgüzar münasibətləri, tərəfdaşlığı, enerji işbirliyini, bir sözlə, bütün sahələr üzrə əməkdaşlıqları yeni bir mərhələyə daşıyır. O baxımdan ki, imzalanan sənəd mövcud strateji tərəfdaşlıq çərçivəsini daha sistemli və institusional əsaslara fokuslayır. Sənədə uyğun olaraq iqtisadiyyat və ticarət, enerji təhlükəsizliyi, bağlantılar, süni intellekt və rəqəmsal inkişaf, eləcə də təhlükəsizlik və müdafiə sahələrində birgə İşçi Qruplarının yaradılması nəzərdə tutulur. Bu mexanizm əməkdaşlığın epizodik təşəbbüslərdən çıxaraq davamlı və koordinasiyalı platforma üzərindən idarə olunmasına imkan verəcək.

Yeni mərhələ qarşılıqlı sərmayələrin təşviqi, innovasiya və texnologiya transferi, nəqliyyat-logistika dəhlizlərinin inkişafı, enerji şaxələndirilməsi və müdafiə sahəsində təcrübə mübadiləsinin dərinləşdirilməsini hədəfləyir. Eyni zamanda, qərarların icrasına nəzarət, prioritetlərin uzlaşdırılması və uzunmüddətli planlaşdırma baxımından daha çevik və effektiv mexanizmlər formalaşacaq. Beləliklə, Bakı ilə Vaşinqton arasında dialoq daha intensiv və nəticəyönümlü xarakter alacaq, institusional əməkdaşlıq keyfiyyətcə yeni mərhələyə yüksələrək ikitərəfli münasibətlərin davamlı inkişafına və regional sabitliyə töhfə verəcək. Sənədə əsasən proses ləngiməyəcək - müvafiq İşçi Qrupları hazırkı Xartiyanın imzalanmasından sonrakı üç ay ərzində layihələrin siyahısını və onların həyata keçirilməsi üçün yol xəritələrini razılaşdırmaq niyyətindədirlər. Razılaşmaya əsasən, Xartiya çərçivəsində ildə ən azı bir dəfə müntəzəm olaraq görüşmək və tərəfdaşlıqlarının həyata keçirilməsi üçün zəruri olan və qarşılıqlı surətdə müəyyən edilmiş digər dialoq platformalarını yaratmaq kimi imkanlar da ortaya qoyulur.

**Münasibətləri yeni mərhələyə daşıyan strateji yol xəritəsi...**

Nəticə etibarı ilə, imzalanan Strateji Tərəfdaşlıq haqqında Xartiya Azərbaycan ilə ABŞ arasında münasibətlərin sadəcə genişlənməsi deyil, onların strukturlaşmış və uzunmüddətli strateji çərçivəyə salınması deməkdir. Sənəd göstərir ki, Bakı ilə Vaşinqton qarşılıqlı maraqları ayrı-ayrı istiqamətlər üzrə deyil, vahid və qarşılıqlı əlaqəli sistem daxilində görür. Bu yanaşma siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi, rəqəmsal transformasiya və müdafiə sahələrini bir-birini tamamlayan elementlər kimi formalaşdırır.

Xartiyanın ən mühüm cəhətlərindən biri əməkdaşlığın miqyasının və mexanizminin bütün komponentlər üzrə seçilməsi, dəqiq təsbit olunması, institusional cəhətlərlə möhkəmləndirilməsidir. Xartiyada əksini tapan 4 Bölmə üzrə təsnifatlandırma konkret layihə portfellərinin hazırlanmasını və icra mexanizmlərinin müəyyənləşdirilməsini praktik müstəviyə keçirir. Bu isə qərarların ardıcıl icrasını, prioritetlərin uzlaşdırılmasını və uzunmüddətli planlaşdırmanı təmin edən dayanıqlı platformanı formalaşdırır. Nəticədə tərəfdaşlıq situativ deyil, davamlı və ölçülə bilən nəticələrə hesablanmış, ən əsası uzunmüddətli və dayanıqlı modelə çevrilir.

Digər mühüm məqam tərəfdaşlığın coğrafi və funksional miqyasının təsbit olunmasıdır. Məsələn, regional bağlantılar, Orta Dəhliz, enerji və kritik resursların qlobal bazarlara çıxışı kimi məsələlər Azərbaycanı beynəlxalq iqtisadi sistemdə daha fəal aktora çevirir, yeni status qazandırır. ABŞ ilə əməkdaşlıq bu prosesə əlavə siyasi və iqtisadi legitimlik qazandırır, eyni zamanda, Cənubi Qafqazın sabit və proqnozlaşdırılan inkişaf məkanına çevrilməsinə xidmət edir. Bu kontekstdə tərəfdaşlıq yalnız ikitərəfli deyil, daha geniş geoiqtisadi arxitekturanın tərkib hissəsi kimi çıxış edir.

Rəqəmsal inkişaf və süni intellekt sahəsində nəzərdə tutulan əməkdaşlıq isə münasibətlərin gələcəyə hesablanmış istiqamətlərini özündə ehtiva edir. İnnovasiya, texnologiya transferi, kibertəhlükəsizlik və yüksək texnologiyalar üzrə birgə təşəbbüslər iqtisadiyyatın modernləşdirilməsi ilə yanaşı, insan kapitalının inkişafına da töhfə verəcək.

Təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsi də regional maraqlara tam uyğundur - bütövlükdə bölgədə sabitliyin möhkəmləndirilməsi bütünlüklə yaxın coğrafiyanın marağındadır. Bununla yanaşı, terrorizmə qarşı mübarizə, müdafiə sənayesi, kibertəhlükəsizlik və humanitar minatəmizləmə istiqamətləri həm milli təhlükəsizlik maraqlarını, həm də beynəlxalq öhdəlikləri əhatə edir.

Bütün bunların fonunda Xartiya Azərbaycan-ABŞ münasibətlərini yeni mərhələyə daşıyan strateji yol xəritəsi kimi qiymətləndirilə bilər. Bu sənəd qarşılıqlı etimadın möhkəmləndirilməsinə, ortaq maraqların uzlaşdırılmasına və gələcək əməkdaşlığın institusional əsasda inkişafına zəmin yaradır. Beləliklə, formalaşan yeni tərəfdaşlıq modeli bugünkü reallıqlarla yanaşı, qarşıdakı onilliklərin siyasi və iqtisadi gündəliyini müəyyən edən əsas çərçivəyə çevrilir.

*Pərviz SADAYOĞLU*

# Yeni münasibətlər sistemi...

## Strateji tərəfdaşlığın yüksəlişi, regional sülh gündəliyi

Son altı ay ərzində Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. İkitərəfli əlaqələrin həm siyasi müstəvidə, həm də strateji tərəfdaşlıq səviyyəsində genişlənməsi bu mənzərəyə əlavə rəng qatır. Qarşılıqlı səfərlər, yüksək səviyyəli görüşlər, imzalanan sənədlər və verilən mesajlar göstərir ki, Bakı ilə Vaşinqton arasında dialoq artıq epizodik xarakterdə deyil - əksinə, sistemli və uzunmüddətli əməkdaşlıq xətti formalaşmaqdadır. Ötən ilin avqust ayında Vaşinqtonda keçirilən görüşlər və imzalanan sənədlər iki ölkə arasında münasibətlərin yeni səhifəsini açdı. Həmin görüşlərdə tərəflər yalnız mövcud əməkdaşlıq istiqamətlərini deyil, həm də gələcək perspektivləri müzakirə etdilər. Bu isə onu göstərir ki, münasibətlər təkcə cari siyasi gündəliklə məhdudlaşmır, strateji baxış üzərində qurulur.

### Qarşılıqlı etimadı gücləndirmək niyyəti

Vurğulanmalıdır ki, Azərbaycan müstəqillik qazandığı gündən etibarən ABŞ ilə qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslanan münasibətlər qurmağa çalışıb. Enerji təhlükəsizliyi, regional sabitlik, terrorizmlə mübarizə, humanitar və iqtisadi əməkdaşlıq kimi istiqamətlər uzun illər iki ölkə arasında əsas əlaqə sütunları olub. Lakin son dövrdə müşahidə edilən dinamika göstərir ki, bu münasibətlər daha geniş və çoxşaxəli xarakter almaqdadır. Xüsusilə Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıqlar, Azərbaycanın regionda təşəbbüskar rol oynaması və qlobal enerji təhlükəsizliyinə verdiyi töhfə Vaşinqton- Bakı münasibətində yeni mərhələ başladıb.

Eyni zamanda, Azərbaycan da ABŞ ilə əməkdaşlığı qlobal və regional sülh gündəliyinin mühüm elementi kimi qiymətləndirir. Bakı beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsipinə əsaslanan nizamın tərəfdarıdır. ABŞ ilə münasibətlərin yeni mərhələsi məhz bu prinsiplər üzərində qurulur. Son altı ayda atılan addımlar göstərir ki, tərəflər qarşılıqlı etimadı gücləndirmək və əməkdaşlığı institusional çərçivədə möhkəmləndirmək niyyətindədirlər. Bu isə ABŞ-Azərbaycan münasibətlərində keyfiyyətcə yeni mərhələnin başlandığını deməyə əsas verir.

### İntensiv təmaslar və strateji dialoqun dərinləşməsi

Azərbaycan ilə ABŞ arasında həm təmasların intensivliyi, həm də danışıqların məzmunu baxımından ciddi irəliləyiş müşahidə olunur. Yüksək səviyyəli görüşlərin artması, qarşılıqlı səfərlərin sıxlaşması və birgə bəyanatların verilməsi göstərir ki, tərəflər münasibətləri yeni mərhələyə daşımaqda qətiyyətlidirlər. Prezident Donald Trampla Prezident İlham Əliyevin son altı ay ərzində iki dəfə görüşməsi də bu dinamikanın bariz göstəricisidir. Dövlət başçıları arasında birbaşa dialoq hər zaman ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır və bu görüşlər tərəflərin siyasi iradəsinin üst-üstə düşdüyünü nümayiş etdirir.

Bu təmaslar yalnız protokol xarakterli görüşlərlə məhdudlaşmır. Danışıqlarda regional təhlükəsizlik, enerji əməkdaşlığı, nəqliyyat-kommunikasiya layihələri, iqtisadi əlaqələrin genişləndirilməsi və qlobal sülh təşəbbüsləri kimi geniş spektrli məsələlər müzakirə olunur. Azərbaycan ABŞ ilə birgə həm qlobal sülhün möhkəmləndirilməsinə, həm də Cənubi Qafqazda dayanıqlı sabitliyin təmin olunmasına töhfə vermək niyyətindədir. Bu baxımdan Bakı özünü regionda məsuliyyətli və təşəbbüskar aktor kimi təqdim edir. Fevralın 10-da Bakıda Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın Vitse-prezidenti Cey Di Vens ilə geniş tərkibdə görüşdə bildirib ki, biz ölkələrimiz arasında münasibətlərə, xüsusilə son altı ayda baş verənlərə yüksək dəyər veririk. Bu müddət bizim tərəfdaşlığımız üçün tamamilə möhtəşəm olmuşdur: "Son altı ayda mənim Prezident Trampla iki görüşüm olub. Bu görüşlər və sizin Azərbaycana rəsmi səfəriniz həqiqətən tərəfdaşlığımızı gücləndirmək üçün qarşılıqlı maraq və qarşılıqlı iradənin olduğunu nümayiş etdirir".

Göründüyü kimi, Cənubi Qafqazda post-münaqişə dövrünün formalaşması, kommunikasiyaların açılması perspektivi və iqtisadi inteqrasiyanın güclənməsi ABŞ üçün də strateji əhəmiyyət daşıyır. Azərbaycan isə regionun əsas iqtisadi və nəqliyyat mərkəzi kimi çıxış edərək yeni əməkdaşlıq platformaları yaradır. ABŞ şirkətlərinin enerji, nəqliyyat və innovasiya sahələrində iştirakı üçün yeni imkanlar yaranır. Bu isə münasibətlərin yalnız siyasi deyil, iqtisadi və texnoloji ölçüdə də dərinləşdiyini göstərir.

### Münasibətlərdə dönüş mərhələsi

Azərbaycan-ABŞ münasibətlərinin son dövrdə yüksək səviyyəyə yüksəlməsi Donald Tramp administrasiyasının yanaşması ilə də sıx bağlıdır. Yeni administrasiya Cənubi Qafqaza daha praqmatik və realpolitik prizmadan yanaşaraq region ölkələri ilə balanslı münasibətlərin qurulmasına üstünlük verir. Bu, xüsusilə Azərbaycan ilə əlaqələrin bərpası və inkişafında özünü göstərir. Əvvəlki administrasiyanın apardığı bəzi qeyri-adekvat siyasi xətt, lokal maraqlara həddindən artıq fokuslanma və regiondakı mürəkkəb reallıqları nəzərə almayan addımlar iki ölkə arasında münasibətlərin soyumasına səbəb olmuşdu.



Yeni mərhələdə isə Vaşinqton Bakı ilə əməkdaşlığı geniş regional kontekst çərçivəsində qiymətləndirir. ABŞ anlayır ki, Cənubi Qafqazda davamlı sülh və sabitlik Azərbaycanın iştirakı olmadan mümkün deyil. Trampın hakimiyyətə qayıdışı ilə ABŞ-ın xarici siyasətində daha çox milli maraqlara əsaslanan, lakin eyni zamanda qlobal təhlükəsizliyi nəzərə alan xətt müşahidə olunur. Bu yanaşma müxtəlif münaqişə ocaqlarında sülh təşəbbüslərinin irəli sürülməsinə və diplomatik aktivliyin artmasına səbəb olub. Keçirilən görüşdə ABŞ vitse-prezidenti deyib ki, Azərbaycan və Ermənistan arasında Prezident Trampın vasitəçilik etdiyi sülh razılaşması düşünürəm ki, onun vasitəçiliyi ilə olan yeddinci və ya səkkizinci sülh razılaşmasıdır: "Bilirəm ki, Prezident Tramp bununla çox qürur duyur, çünki o, Sizin ölkənizə, həm də Ermənistana heyrandır. Əfsuslar olsun ki, sonuncu administrasiya bir çox səhvlərə yol verdi. Onların yol verdikləri səhvlərdən biri Azərbaycana münasibətdə çox sərsəm siyasətin yürüdülməsi idi. Biz Prezidentin rəhbərliyi ilə bunu düzəltdik. Buna görə mən çox minnətdaram".

Qeyd edildiyi kimi, Cənubi Qafqaz bu yeni yanaşmanın diqqət mərkəzindədir. ABŞ regionda qarşıdurmadan daha çox əməkdaşlıq mühitinin formalaşmasını dəstəkləyir. Azərbaycan isə öz növbəsində regional sabitliyin təmin olunması üçün konkret təşəbbüslərlə çıxış edir. Bu maraqların üst-üstə düşməsi iki ölkə arasında strateji tərəfdaşlığın güclənməsinə şərait yaradır. Nəticədə, münasibətlər formal çərçivədən çıxaraq real siyasi və iqtisadi məzmun qazanır.

### Bakı sülhpərvər siyasət yürüdür

Azərbaycan hər zaman sülhpərvər mövqe nümayiş etdirib. Hətta işğal dövründə belə rəsmi Bakı problemin beynəlxalq hüquq çərçivəsində və sülh yolu ilə həllini dəstəkləyirdi. Bu, xalqın və dövlətin mahiyyətindən irəli gələn prinsipial mövqedir. Azərbaycan bu gün də regionda əməkdaşlıq və inteqrasiya təşəbbüsləri ilə çıxış edir. Zəngəzur dəhlizi (TRIPP) və digər nəqliyyat layihələri regionun iqtisadi xəritəsini dəyişmək potensialına malikdir. ABŞ-ın dəstəyi ilə həyata keçirilən təşəbbüslər Cənubi Qafqazda yeni inkişaf mərhələsinin başlanmasına töhfə verə bilər. Eyni zamanda, Azərbaycan dünyada tolerantlıq və multikulturalizm nümunəsi kimi tanınır. Şərq ilə Qərb arasında körpü rolunu oynayan ölkə qlobal dialoqun inkişafına öz töhfəsini verir. ABŞ ilə münasibətlərin güclənməsi də bu körpünün daha da möhkəmlənməsi deməkdir. Qarşılıqlı etimad və strateji tərəfdaşlıq əsasında qurulan bu yeni mərhələ həm iki ölkənin maraqlarına, həm də regionun sabitliyinə xidmət edir. ABŞ-ın Vitse-prezidenti də görüşdə sülh gündəliyinin irəli aparılmasında Prezident İlham Əliyevin nümayiş etdirdiyi liderliyi vurğulayıb. Dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi roluna toxunub. Cey Di Vens Azərbaycanda hökm sürən tolerant mühiti qeyd edərək, ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin bir ailə kimi sülh və dostluq şəraitində yaşadığını deyib.

***P.İSMAYILOV***

# Müasir dövrün iqtisadi münasibətləri

## ABŞ -Azərbaycan əməkdaşlığında yeni səhifə açılır

Amerika Birləşmiş Ştatlarının (ABŞ) Vitse-prezidenti Cey Di Vensin Azərbaycana səfəri ikitərəfli münasibətlərdə yeni səhifə açan hadisə kimi xarakterizə oluna bilər. Cənab Vensin mətbuata bəyanatında səsləndirdiyi mühüm fikirlər dövlətlərimiz arasında iqtisadi münasibətlərin keyfiyyətini bir daha əks etdirməklə yanaşı, qarşıdakı mərhələdə geniş iqtisadi-investisiya layihələrinin icrasına başlanılacağına dair nikbin əminliyi ifadə edir. Bu, həm də ABŞ-Azərbaycan münasibətlərinin gələcəyi üçün çox vacib və fundamental proqramların anonsu kimi də dəyərləndirilə bilər. Bakı və Vaşinqton arasında qarşılıqlı, möhkəm etimada əsaslanan yeni anlaşmaların əldə olunması isə enerji, ticarət, investisiya, logistika, tranzit, "rəqəmsal iqtisadiyyat" quruculuğunun möhkəm arxitekturasının formalaşdığını əks etdirir.



### Sadiq və etibarlı enerji müttəfiqi

İlk növbədə, iki dövlət arasında iqtisadi baxışların qətiyyətli dövrünün xarakterizə edən enerji əməkdaşlığı da yeni dövrə qədəm qoyur. ABŞ-ın Azərbaycanın etibarlı enerji müttəfiqidir. 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"ndə ABŞ-ın "Chevron", "ExxonMobil" neft şirkətləri təmsil olunub, SOCAR-la bir neçə neft yataqlarının istismarı ilə bağlı müqavilələr imzalanıb. Tərəflər arasında səmərəli iqtisadi kommunikasiya, eyni zamanda böyük bir regional-coğrafi arxitekturada dərin əməkdaşlıq alyanslarını formalaşdırıb.

Azərbaycan-ABŞ enerji tərəfdaşlığı həm də region və Avropa ölkələrinin enerji təhlükəsizliyində mühüm rol oynayan töhfəverici amildir. Ötən 30 ildə neft-qaz sahəsində beynəlxalq əhəmiyyətli layihələrin icra olunması, təşəbbüslərin dəstəklənməsi əməkdaşlıq imkanlarının hədsiz güclü potensialından xəbər verir. Vaşinqtonun güclü dəstəyi sayəsində Xəzər regioniun ətraf coğrafiyalarla tranzitləri möhkəmlənib, irimiqyaslı enerji layihələrinin həyata keçirilməsi, Şərq-Qərb enerji dəhlizlərinin formalaşması və BTC, TANAP, TAP kimi qlobal layihələrin ərsəyə gəlməsi mümkün olub. Cənub Qaz Dəhlizinin ərsəyə gəlməsində Donald Trampın birinci prezidentlik dövründə verdiyi davamlı dəstək müstəsna rol oynayıb.

Hazırda SOCAR və "ExxonMobil" korporasiyası arasında "Əməkdaşlıq haqqında Memorandum"a əsasən, yeni əməkdaşlıq 30 illik enerji salnaməsinin uğurlu davamı sayıla bilər. Bu, Vaşinqtonun ən nəhəng neft korporasiyasının Azərbaycanda yeni fəaliyyət planlarına start verməsi, Azərbaycanın Xəzərdə formalaşdırdığı müasir enerji həmrəyliyi halqasının daha da genişlənməsinə töhfəsi və regionda trans-kontinental enerji habının yaranmasına sarsılmaz dəstəyi kimi xarakterizə edilə bilər.

Ümumiyyətlə, Azərbaycan regionda və qlobal miqyasda etibarlı enerji dövləti kimi yeni tərəfdaşlarla birgə enerji ailəsinin cərgəsini genişləndirir. Cənab İlham Əliyevin vurğuladığı kimi hazırda Azərbaycan 16 ölkəyə təbii qaz ixrac edir və boru kəməri vasitəsilə qaz təmin edən ölkələrin sırasında dünyada birinci yeri tutur. Qazın nəql edildiyi 12 Avropa dövləti, 11-i NATO üzvü, ABŞ-ın müttəfiqidir.

### Orta Dəhlizdə Azərbaycan və ABŞ-ın ortaq maraqları

Azərbaycan qlobal nəqliyyat-komminikasiya-logistika landşaftının ən nəhəng coğrafi tranziti olan Orta Dəhlizin ən etibarlı mərkəzlərindən birinə çevrilir, Şərq-Qərb istiqamətində daşınmaların tranzit qovşağı kimi beynəlxalq daşınmaların axıcılığını təmin edir. Bu gün beynəlxalq ticarət icması, ələxsus da ABŞ  Azərbaycanın bu geostrateji və coğrafi mövqeyinin əhəmiyyətliliyini nəzərə alaraq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun - TRIPP layihəsinin reallaşmasına xüsusi dəstək verir, daha güclü mövqelərə malik tranzit ölkəyə çevrilməyə çalışır. Eyni zamanda, TRIPP layihəsi Azərbaycanın iki hissəsini birləşdirərək, Azərbaycan, Ermənistan və digər qonşuların ərazisi vasitəsilə Asiya ilə Avropanın da kommunikasiya bağlantısına çevriləcək.

### Süni intellekt, "rəqəmsal iqtisadiyyat" quruculuğunda yeni dövr

Azərbaycan və ABŞ arasında strateji tərəfdaşlıq formatı qarşılıqlı investisiya, ticarət, rabitə, süni intellekt, tranzit, müdafiə sahəsi və digər sahələri də əhatə edir. Ələxsus da, dördüncü sənaye inqilabının və süni zəka dövrünün tələbatlarına uyğun olaraq, startaplar, rəqəmsal texnologiyalar, innovasiyayönümlü sənaye layihələri, süni intellekt və "yaşıl iqtisadiyyat" transformasiya üzrə yaxından işləmək planları ön sırada dayanır. Vitse-prezident Cey Di Vensin vurğuladığı kimi ABŞ ilə Azərbaycan arasında tərəfdaşlıq regionda daha möhkəm sülhə və əmin-amanlığa aparacaq. ABŞ-ın iş adamları üçün əlavə bazarlara çıxış yaranacaq. Müdafiə məhsullarının satışı sahəsində yeni səhifə açırıq və bu, həmçinin perspektivlidir.

Süni intellekt mərkəzlərinin yaradılması ikitərəfli gündəliyin bir hissəsi olmaqla, Amerikanın aparıcı şirkətləri ilə işbirliyini təmin edəcək. Birgə layihələrə ABŞ-ın ölkəmizdə qeyri-neft sektoruna daha çox texnologiya və innovasiyaların cəlb edilməsinə də imkan yaradacaq. Bu, Azərbaycanda iqtisadi diversifikasiya ilə bağlı hədəflərin reallaşmasına dəstək olacaq. Bu kontekstdə ABŞ-Azərbaycan strateji tərəfdaşlığı ABŞ texnologiyasının və sərmayəsinin ölkəmizə gəlməsi, ABŞ-ın iqtisadi fəallığı deməkdir.

Beləliklə, 35 illik tarixi olan ABŞ-Azərbaycan münasibətləri öz strateji zirvəsinə çatmaqdadır. Prezident İlham Əliyev və Donald Trampın ortaya qoyduğu sarsımaz iradə və imzalanan sənədlər yaxın dost ölkələrin iqtisadi-ticari müttəfiqliyini möhkəmləndirməklə, çoxşaxəli əməkdaşlıqlara dərin zəmi yaradır.

***ELBRUS CƏFƏRLI***

# Yeni investisiya bumu

## ABŞ Ticarət Palatasının nümayəndə heyətinin ölkəmizə səfəri nəhəng iqtisadi layihələrin reallaşmasına zəmin yaradır

Azərbaycanda səfərdə olan ABŞ Ticarət Palatasının nümayəndə heyəti ilə ölkəmizin hökumət və iqtisadi qurumlarının təmsilçiləri arasında keçirilən görüşlər uğurla başa çatıb. ABŞ Ticarət Departamenti ilə tərəfdaşlıq çərçivəsində təşkil olunan missiya çərçivəsində Prezident İlham Əliyevlə görüşün keçirilməsi daha əlamətdar olub. Dövlətimizin başçısı nümayəndə heyəti ilə görüşdə bir sıra mühüm mesajlar verməklə ABŞ-ın biznes icmasının Azərbaycanda daha fəal çalışması üçün möhkəm zəmanətlər verildiyini xatırlatmış oldu. Vurğulandığı kimi ölkəmizdə təmin edilmiş sağlam investisiya mühitindən bəhs edərək bu münbit iqlimin xarici sərmayədarlar, o cümlədən ABŞ investor ailəsi üçün olduqca əlverişli və fəaliyyət imkanı yaradır. Xüsusən də ABŞ biznes nəslinin böyük nümayəndə heyətinin ölkəmizə səfəri təmasların tamamilə yeni müstəviyə adlamasını təşviq edir, biznes, sərmayə, ticarət münasibətləri və strateji gündəliyin digər istiqamətləri üzrə müştərək tərəfdaşlığın möhkəmlənməsinə baza yaradır.

### 31 şirkət - qlobal biznes nəslinin siması

Müxtəlif iqtisadi qurumların və sahibkarlıq assosiasiyalarının nümayəndələri ilə keçirilən görüşdə ölkəmizin ABŞ ilə münasibətlərin inkişafına önəm verdiyi, tərəflər arasında iqtisadi-ticarət, enerji, investisiya, nəqliyyat-tranzit, sənaye və digər sahələrdə əməkdaşlığın inkişafı üçün böyük imkanların olduğu diqqətə çatdırılıb. Tərəflər ölkələr arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün mövcud potensialın birgə təşəbbüslərlə reallaşdırılması imkanlarını nəzərdən keçirib, qarşılıqlı maraqlar çərçivəsində həyata keçirilən layihələrin regionun inkişafı üçün önəmi qeyd olunub. Azərbaycanın etibarlı enerji tərəfdaşı, Avropa və Mərkəzi Asiya ölkələri arasında regional mərkəz kimi strateji mövqeyi xatırladılıb.

Qeyd edək ki, nümayəndə heyətinə ABŞ-ın dünyaca məşhur “Apple”, “Ardea Energy Technologies Inc.”, “Ericsson AB”, “ExxonMobil”, “Herbalife”, “Illumina”, “Meta”, “Visa”, “Wabtec”, “Baker Hughes”, bp, “Boeing Global”, “Honeywell”, “J.P.Morgan”, “Lummus Technology”, “Marriott”, “Mastercard”, “Shell International”, “Azerbaijan Coca-Cola Bottlers” MMC və “Motorola Solutions” şirkətlərinin rəhbər şəxsləri daxil idi ki, bu da qlobal biznesin əsas simaları deməkdir.

Ümumilikdə, 31 şirkətin təmsil olunduğu beynəlxalq miqyaslı korporasiyaların Azərbaycana gəlişi iki ölkənin biznes dairələri arasında birbaşa əlaqələrin yaradılması və qarşılıqlı səfərlərin təşkilini də legitimləşdirir.



### İnvestisiyalarda qarşılıqlı maraq nümayişi

ABŞ Ticarət Palatasının biznes missiyası Energetika Nazirliyi, SOCAR, “AzərEnerji” ASC, “Azərişıq” ASC, “Azəristiliktəchizat” ASC, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, Enerji Məsələlərini Tənzimləmə Agentliyi ilə faydalı görüşlər də keçirib. Tədbirdə Azərbaycan-ABŞ enerji tərəfdaşlığından məmnunluq ifadə edilib. Bildirilib ki, bu tərəfdaşlıq təkcə milli layihələrin deyil, eyni zamanda, regional və beynəlxalq enerji təhlükəsizliyi layihələrinin uğurla reallaşdırılmasına mühüm töhfə verib. ABŞ şirkətlərinin texnologiyaları, təcrübəsi və investisiyaları iri transmilli enerji layihələrinin formalaşmasında həlledici rol oynayıb. Azərbaycanın bütün enerji növlərini bərabərhüquqlu əsasda inkişaf etdirməsi, regional enerji bağlantılarını şaxələndirməsi, enerji təchizatçısı rolunu elektrik enerjisi ilə genişləndirməsi və enerjinin mühüm bir hissəsinin məlumat mərkəzlərinin tələbatına yönəldilməsi ilə bağlı kursu diqqətə çatdırılıb. Neft, qaz, bərpaolunan enerji, elektrik enerjisi, hidrogen və enerji səmərəliliyi sahələrində əməkdaşlıq imkanları müzakirə edilib. SOCAR və “ExxonMobil” arasında əməkdaşlığın cari vəziyyəti nəzərdən keçirilib. Həmçinin Azərbaycan, Türkiyə, Mərkəzi Asiya və Avropa arasında elektrik enerjisi dəhlizlərinin icrası, “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” üzərindən elektrik enerjisinin nəqli və bu layihələr çərçivəsində ABŞ şirkətləri ilə əməkdaşlıq perspektivləri dəyərləndirilib. Azərbaycan və ABŞ arasında enerji sahəsində texnologiya, bilik, təcrübə və investisiya istiqamətlərində əməkdaşlığa qarşılıqlı maraq nümayiş etdirilib.

### İqtisadi-ticari dövriyyə və investisiya imkanları artır

ABŞ və Azərbaycanın çoxistiqamətli iqtisadi əməkdaşlıq platformasının möhkəmlənməsi ticarət dövriyyəsinin və investisiya qoyuluşlarının artması üçün dərin zəminlər yaradır. Sözsüz ki, bu sahədə ABŞ Ticarət Palatasının təşviqedici rolu böyükdür. Palatanın təşviqedici addımları sayəsində Azərbaycanın ümumi iqtisadi-ticari dövriyyəsinin balansında ABŞ-ın payı artır. Donald Trampın yenidən prezident seçilməsindən sonra ABŞ və Azərbaycan arasında olan münasibətlərin müsbət məcrada dəyişməsi iqtisadi dinamikanı da böyüdüb. 2023-2024-cü illərdə iqtisadi mübadilənin dövriyyəsi 1,9- 2 faiz təşkil edibsə, 2025-cü ildə bu göstərici 3,2 faizə çatıb. Azərbaycanın Birləşmiş Ştatlara 60 milyon dollara yaxın qeyri-neft məhsullarının ixracının gerçəkləşməsi isə iqtisadi gündəıliyin daha da zənginləşdiyini göstərir.

Bir sözlə, amerikalı biznes icmasının ölkəmizə səfəri çox qənaedici və yeni imkanların səfərbər edilməsi, birgə iqtisadi partnyorluq üçün əlamətdar olub. ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin də etiraf etdiyi kimi ilk biznes missiyası ABŞ-ın özəl sektoru ilə Azərbaycan Hökuməti və biznes dairələri arasında yeni dialoq kanalları açacaq, iqtisadi gündəliyin icrasını sürətləndirəcək. Amerikalı iş adamları iqtisadi prioritetlər, investisiya mühiti və enerji, rəqəmsal iqtisadiyyat, nəqliyyat və müdafiə kimi önəmli sahələrdə uzunmüddətli tərəfdaşlığa sərmayə təşviqlərini gerçəkləşdirəcək. “Visa” şirkətinin baş vitse-prezidenti, MDB və Cənubi və Şərqi Avropa regionu üzrə meneceri Kristina Doros isə bildirib ki, biznes missiyasının səfəri Azərbaycanın inkişaf edən rəqəmsal ödəniş ekosistemini dəstəkləməklə, yeni innovasiyaların, maliyyə inklüzivliyinin və bizneslərin işgüzarlığının güclənməsinə töhfə verəcək.

***E.CƏFƏRLİ***

# Azərbaycan tolerantlıq məkanıdır

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 9-da ABŞ-ın Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri Betsi Berns Kornun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Səmimilik şəraitində keçən görüşün gündəliyi kifayət qədər geniş əhatə dairəsinə malik olub və müxtəlif məsələlər ətrafında faydalı müzakirələr aparılıb. Qəbulda həmçinin son vaxtlarda Azərbaycan - İsrail münasibətlərinin genişlənməsinə və ölkəmizdə yəhudi icmasına göstərilən hərtərəfli dövlət qayğısına diqqət çəkilib.



### Azərbaycan - İsrail: Əməkdaşlığın genişlənməsi üçün böyük potensial var

Qəbulda söhbət zamanı Prezident İlham Əliyevlə ABŞ-ın Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının nümayəndələrinin əvvəlki görüşləri məmnunluqla xatırlanıb.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Betsi Berns Korn Azərbaycanın strateji əhəmiyyətini, həmçinin ABŞ və İsraillə yaxşı əlaqələrini nəzərə alaraq əməkdaşlığın genişləndirilməsi baxımından məsələlərin müzakirəsi üçün böyük nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlməkdən məmnunluğunu ifadə edib.

Bu gün Azərbaycanla İsrail arasında müxtəlif istiqamətlərdə məmnunluq doğuran yüksəksəviyyəli münasibətlərin təməlində dayanan əsas amil siyasi dialoqun dinamik səciyyə daşımasıdır. Hər iki dövlətin qətiyyətli siyasi iradəsi sayəsində formalaşan əməkdaşlıq davamlı olaraq inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Müstəqil Azərbaycanmla İsrail Dövləti arasında münasibətlər ötən əsrin doxsanıncı illərinin əvvəllərindən formalaşmağa başlayıb. İsrail 1991-ci il dekabrın 25-də Azərbaycanın müstəqilliyini tanıyıb, 1992-ci il aprelin 7-də iki ölkə arasında diplomatik əlaqələr qurulub. 1993-cü ilin avqustundan İsrailin Azərbaycanda səfirliyi fəaliyyət göstərir. 2023-cü il aprelin 23-də Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyinin açılması iki ölkə arasında yüksək səviyyədə olan münasibətlərin daha da inkişaf etməsinə mühüm töhfə olub. Bu gün Milli Məclisdə Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Eyni zamanda, dost ölkənin Knessetində İsrail-Azərbaycan parlamentlərarası dostluq qrupu yardılıb. İndiyədək Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında 13 sənəd imzalanıb.

İki dost ölkə arasında qarşılıqlı etimadın göstəricisi olaraq yüksəksəviyyəli nümayəndə heyətlərinin səfərləri davamlı hal alıb. Azərbaycan və İsrail prezidentləri müxtəlif beynəlxalq platformalarda müntəzəm qaydada görüşərək aktual müzakirələr aparırlar. Dövlət başçıları arasında sonuncu belə görüş Davos İqtisadi Forumu çərçivəsində baş tutub. Həmin görüşdə Azərbaycan-İsrail münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı vurğulanıb. İqtisadi, ticari, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edilib, həmçinin dövlət başçıları əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə ediblər.

Cari ilin yanvarında İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarın rəhbərlik etdiyi böyük nümayəndə heyətinin respublikamıza səfərə gəlməsi və səfər çərçivəsində baş tutan görüşlərdə ikitərəfli münasibətlərin müxtəlif aspektləri ilə bağlı önəmli müzakirələrin aparılması Azərbaycanla İsrail arasında əməkdaşlığın yüksələn xətlə inkişaf etməsinin daha bir təsdiqinə çevrildi. Səfər çərçivəsində Prezident İlham Əliyev İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarı qəbul edib. Eləcə də dost ölkənin yüksək səviyyəli rəsmisi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşüb və bir sıra digər mühüm tədbirlərə qatılıb. Səfər gündəliyinin belə geniş olması ondan xəbər verir ki, hər iki tərəf əməkdaşlığı genişləndirməkdə maraqlıdır.

Eyni zamanda, siyasi dialoqun yüksək səviyyəsinə adekvat olaraq iki ölkə arasında iqtisadi sahədə də əməkdaşlılq uğurla inkişaf edir. Burada hökumətlərarası komissiyanın da böyük rolu var. Birgə Komissiya əməkdaşlığı daha da dərinləşdirmək üçün mühüm platforma qismində çıxış edir. Hazırda Azərbaycanda sənaye, kənd təsərrüfatı, tikinti, ticarət və xidmət sahələri üzrə 125 İsrail kapitallı kommersiya qurumu fəaliyyət göstərir. Azərbaycan və İsrail şirkətləri maliyyə və qida texnologiyaları, kənd təsərrüfatı və səhiyyə sahələrində fəal işbirliyi həyata keçirir ki, bu da Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və texnoloji inkişafı baxımından əhəmiyyətlidir. Birgə komissiyanın iclasında bildiirldiyi kimi, kənd təsərrüfatı, qida, su və enerji texnologiyaları, dərman sənayesi, biotexnologiya və digər sahələrdə fəaliyyətin genişləndirilməsi üçün böyük potensial mövcuddur.

### Yəhudi icmasına göstərilən hərtərəfli dövlət qayğısı

Görüşdə Azərbaycanda tarixən tolerant mühitin hökm sürdüyü qeyd edilib, digər xalqların nümayəndələrinə olduğu kimi yəhudilərə də göstərilən dövlət qayğısına toxunulub.

Həqiqətən də, nümunəvi tolerantlıq mühitinə malik olması Azərbaycanı fərqləndirən çox mühüm bir cəhətdir və bu, dünyada mədəniyyətlərarası dialoqun kritik dönəmdən keçdiyi indiki dönəmdə xüsusi nəzərə çarpır. Açıq deyək ki, dünyada müşahidə edilən mənzərə heç də ürəkaçan deyil. Bir sıra hallarda sivilizasiyalararası qarşıdurmaların müşahidə edilməsi son dərəcə kədərli təəssüratlar oyadır. Bəşəriyyət sanki geridönüş edir və ayrı-ayrı məkanlarda dinlər, etiqadlar, irqlər arasında qarşıdurmalar açıq müstəviyə keçir. Ən qorxulu cəhət ondan ibarətdir ki, mədəniyyətlərarası dözümsüzlük əksər hallarda müəyyən qüvvələr, hətta dövlətlər səviyyəsində təşviq edilərək qızışdırılır.

Dünyadakı belə kədərli mənzərə ilə müqayisədə respublikamızın reallıqları tamam fərqlidir. Başqa dinlərə, mədəniyyətlərə sayğılı münasibət bəslənilməsi Azərbaycanda oturuşmuş bir ənənədir. Tarix boyunca respulikamızın ərazisində müxtəlif inanclara məxsus insanlar əmin-amanlıq şəraitində yaşayaraq öz gələcəklərini qurublar. Tarixdən gələn ənənələr bu gün də yaşayır. Azərbaycan çoxkonfessiyalı dövlətdir. Hazırda ölkə əhalisinin 96 faizini müsəlmanlar, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Lakin belə fərqlilik ölkəmizdə əsla ayırıcı xətlər yaratmır, əksinə biz bununla qürur duyuruq.

O cümlədən respubllikamızda yəhudilər də əmin-arxayın yaşayaraq öz həyatlarını qururlar və mədəniyyətlərini inkişaf etdirlər. Bu gün yəhudilər Azərbaycan cəmiyyətinin ayrılmaz tərkib hissəsini təşkil edirlər. Təsadüfi deyildir ki, Qarabağ müharibəsində şəhid olan ilk qəhrəmanlar sırasında yəhudi əsilli Milli Qəhrəmanımız Albert Aqarunovun adı xüsusi hörmətlə çəkilir.

Yəhudilərin Bakıda ilk ibadət evləri 1832-ci ildə inşa olunub. Hazırda Bakı şəhərində yəhudilərin 3 sinaqoqu mövcuddur. Bir sinaqoq isə Quba rayonunda, dağ yəhudilərinin iri icmasının məskunlaşdığı Qırmızı Qəsəbədədir. Bu, keçmiş SSRİ-də yəhudilərin kompakt yaşamaqda olduğu yeganə yerdir. Cənubi Qafqazda ən böyük yəhudi təhsil mərkəzi Heydər Əliyev Fondunun “Tolerantlığın ünvanı- Azərbaycan” layihəsi çərçivəsində “Or-Avner” Beynəlxalq Fondu tərəfindən inşa edilən və Bakıda yaşayan yəhudi uşaqları üçün nəzərdə tutulan “Xabad-Or-Avner”dir. 2010-cu il oktyabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, MDB Yəhudi İcmaları Federasiyasının və “Or-Avner” Beynəlxalq Fondunun prezidenti Lev Levayevin iştirakı ilə Təhsil Mərkəzinin açılışı baş tutub. Bundan başqa, Azərbaycanda yəhudilərin iyirmiyə yaxın ictimai-mədəni və xeyriyyə təşkilatı fəaliyyət göstərir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycanda yəhudi dini mədəni mərkəzinin yaradılması ölkəmizdə yəhudi icmasına göstərilən dövlət qayğısının daha bir ifadəsidir. Bütövlükdə, respublikamızda uzun əsrlər boyu sülh və əmin-amanlıq içərisində yaşayan yəhudi icmasının mövcudluğu Azərbaycan və İsrail arasındakı güclü tərəfdaşlıq əlaqələrinin inkişafına əlavə impuls verir.

***Mübariz FEYİZLİ***

# Merlər Razılaşması Azərbaycanda

Respublikamızda Energetika Nazirliyinin və Avropa İttifaqının (Aİ) birgə təşkilatçılığı ilə daha bir beynəlxalq tədbir uğurla baş tutub. Söhbət Avropa İttifaqı (Aİ) tərəfindən Şərq Tərəfdaşlığı proqramı çərçivəsində maliyyələşdirilən və yerli iqlim və enerji fəaliyyəti üzrə ən böyük təşəbbüslərdən biri kimi qəbul edilən Merlər Razılaşmasına qoşulmağı nəzərdən keçirən bələdiyyələr üçün mövcud imkanlar haqqında maarifləndirici tədbirdən gedir.

Paytaxt Bakıda baş tutan tədbir bələdiyyələrin, habelə milli qurumların təxminən 100 nümayəndəsini bir araya gətirib. Görüşlərin əsas məqsədi potensial qoşulmaq istəyən tərəflərə Merlər Razılaşmasına üzvlüyün praktikada nə demək olduğunu aydın şəkildə izah etməkdən ibarət olub. Görüşlər çərçivəsində komanda tərəfindən konkret dəstək mexanizmləri təqdim edilib. Bu dəstəyə Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planlarının hazırlanması üzrə metodiki vasitə, irəliləyişin izlənilməsi üçün alətlər, layihə dəstək xidməti, potensialın artırılması fəaliyyətləri, eləcə də iqlim layihələrinin icrasına yönəlmiş texniki dəstək daxildir.

## Merlər Razılaşması nədir?

Merlər Razılaşması deyilən təşəbbüs nədən ibarətdir? Avropa İttifaqının İqlim və Enerji üzrə Merlər Razılaşması təşəbbüsü ilk dəfə 2008-ci ildə İqlim və Enerji Paketinin qəbul edilməsindən sonra Avropa Komissiyası tərəfindən dayanıqlı enerji siyasətinin hazırlanması və həyata keçirilməsində yerli özünüidarəetmə orqanları tərəfindən göstərilən səylərin dəstəklənməsi məqsədilə irəli sürülüb. Təşəbbüs 2015-ci ildən etibarən qlobal miqyas almağa başlayıb. Merlər Razılaşması hazırda dünyanın ən iri iqlim və enerji təşəbbüslərindən biri kimi qəbul olunur.

Təşəbbüsü imzalayan bələdiyyələrin öhdəlikləri Aİ-nin aşağıdakı iqlim və enerji siyasəti çərçivələri ilə əlaqələndirilir:

- 2008-2015-ci illərdə təşəbbüsü imzalayan bələdiyyələr üçün 2020-ci ilə iqlim və enerji tədbirləri paketi;
- 2015-ci ildən sonra imzalayan bələdiyyələr üçün 2030-cu ilə qədər olan müddətdə iqlim və enerji tədbirləri paketi, o cümlədən İqlim dəyişmələrinə adaptasiya ilə bağlı Avropa İttifaqı Strategiyası.

Merlər Razılaşmasını Şərq Tərəfdaşlığı ölkələrindən imzalayanlar iqlim dəyişikliyinin azaldılması və bu dəyişikliyin təsirlərinə uyğunlaşma üçün 2030-cu ilə qədər karbon qazı ($CO_2$) emissiyalarını ən azı 30 faiz azaltmaq və iqlim dəyişikliyinə davamlılığı artırmaq məqsədilə ilk iki il ərzində SECAP (Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planı - Sustainable Energy and Climate Action Plan) hazırlamaqla bağlı öhdəlik götürürlər.

Ölkələrdə Merlər Razılaşmasını imzalayan, lakin onların tələblərini yerinə yetirmək üçün lazımi bacarıqları və ya resursları olmayan bələdiyyələrə strateji rəhbərliyi, texniki dəstəyi təmin edən milli əlaqələndirici qurum fəaliyyət göstərir. Eyni zamanda, milli əlaqələndirici Aİ ilə bələdiyyələr arasında proqramın əlaqələndirilməsini təmin edir, SECAP hazırlanmasına və həyata keçirilməsinə yardım göstərir.

Merlər Razılaşmasının əsas hədəfləri aşağıdakılardan ibarətdir:

-Enerji səmərəliliyi tədbirlərini həyata keçirmək və bərpa olunan enerji mənbələrindən istifadəni genişləndirməklə istilik effekti yaradan qaz (İEYQ) emissiyalarını azaltmaq,

-İqlim dəyişikliklərinə uyğunlaşmada dayanıqlılığı artırmaq,

-Bələdiyyələr, yerli və mərkəzi icra hakimiyyəti orqanları arasında əməkdaşlığı gücləndirmək,

-Hamı üçün təhlükəsiz, dayanıqlı və etibarlı enerjiyə əlçatanlığı təmin etmək.

Merlər Razılaşması yuxarıda sadalanan məqsədlərə çatmaq niyyətində olan, həmçinin Aİ-nın iqlim və enerji məqsədlərinin yerinə yetirilməsi üzrə üzərinə könüllü öhdəlik götürən yerli və regional idarəetmə orqanları tərəfindən imzalanır. SECAP-ın həyata keçirilməsi Avropa İttifaqı, vətəndaş cəmiyyətləri, iqlim və enerji fondları, qeyri-hökumət təşkilatları və müxtəlif donorlar tərəfindən dəstəklənir.



## Azərbaycanın iştirakçılığı və əldə olunan müsbət nəticələr

Məlumdur ki, 2016-cı ildə Paris İqlim Sazişinə qoşulan Azərbaycan 1990-cı baza ili ilə müqayisədə 2035-ci ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 40 faiz azaldılmasını nəzərdə tutan milli hədəfi və bu hədəfi ehtiva edən "Yenilənmiş, 3-cü Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr" (NDC 3.0) sənədini təsdiqləyib. Merlər Razılaşması təşəbbüsünə qoşulma regionlarda enerji səmərəliliyi tədbirlərinin həyata keçirilməsinə və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsinə kömək etməklə ölkəmiz tərəfindən götürülən öhdəliklərin yerinə yetirilməsində müsbət rol oynayır.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi (2012-ci ildə) və Mingəçevir Bələdiyyəsi (2017-ci ildə) Merlər Razılaşmasına Azərbaycandan ilk qoşulanlardır. 2018-ci ilin 24 sentyabr tarixindən Azərbaycan Respublikasının Energetika Nazirliyi Aİ-nin İqlim və Enerji üzrə Merlər Razılaşmasının ölkə üzrə Milli Əlaqələndiricisi kimi müəyyən edilib. 2020-ci ildə bu təşəbbüsə Şəki, Gəncə (Nizami rayonu), Yevlax, Qazax, Şamaxı və Xaçmaz bələdiyyələri, 2022-ci ildə isə Abşeron Rayon Xırdalan Bələdiyyəsi qoşulub.

Artıq bu əməkdaşlığın konkret müsbət nəticələri də var. Tədbir çərçivəsində Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini Səyyarə Musayeva, Mingəçevir Şəhər Bələdiyyəsinin sədri Anar İsmayılov Merlər Razılaşması təşəbbüsünə qoşulma üzrə öz təcrübələrini bölüşüblər. Qeyd olunduğu kimi, Mingəçevir ölkədə Merlər Razılaşması - Şərq Tərəfdaşlığı tərəfindən Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planının hazırlanması üçün dəstək alan ilk şəhər olub və bu, yerli iqlim və enerji planlaşdırması üçün zəmin yaradıb. Həm Mingəçevir, həm də Şəki üçün təşəbbüs bələdiyyə obyektlərində enerji auditlərinin aparılmasına dəstək göstərib. Şəkidə bu dəstək həmçinin "Mounting Adapt" proqramı çərçivəsində konkret layihə üçün maliyyənin cəlb olunmasına imkan yaradıb. Bundan əlavə, Merlər Razılaşması - Şərq Tərəfdaşlığı yerli maraqlı tərəflərin cəlb olunmasına və ictimai məlumatlılığın artırılmasına töhfə verən Enerji Günlərinin təşkili prosesini də dəstəkləyib.

Eyni zamanda, Energetika Nazirliyinin ekspertləri Şəkiyə təşkil olunan səfər zamanı Merlər Razılaşması - Şərq Tərəfdaşlığının ekspertlərini müşayiət edərək, qarşılıqlı təcrübə mübadiləsini praktiki öyrənmə ilə birləşdiriblər. Proqram çərçivəsində kiçik su elektrik stansiyası, ənənəvi su dəyirmanları və seçilmiş tarixi abidələr kimi yerli enerji və mədəni irs obyektlərinə səfərlər həyata keçirilib və iqlim, enerji və mədəni dəyərlərin dayanıqlı yerli inkişafa inteqrasiyası yolları yerində qiymətləndirilib.

## 7 şəhərin fəaliyyət planı hazırdır

Avropa İttifaqının İqlim və Enerji üzrə Merlər Razılaşmasında iştirak edən Azərbaycanın 7 şəhərinin fəaliyyət planı hazırdır.

Bunu tədbirdə çıxış edən Merlər Razılaşmasının Şərq komanda rəhbəri Kristof Frerinq bildirib. Onun sözlərinə görə, sevindirici hal odur ki, Merlər Razılaşmasında iştirak edən Azərbaycanın 9 şəhərindən 7-nin artıq fəaliyyət planı hazırdır: "Bu, kifayət qədər yaxşı göstəricidir. Bu, şəhərlərin məsuliyyətli olduğunu və fəaliyyət planı hazırlamaq üçün çalışdıqlarını göstərir. Ümumilikdə, bu şəhərlər ölkə əhalisinin 9 faizini təmsil edir. Doğrudur, bu, digər ölkələrlə müqayisədə çox deyil. Lakin nəzərə almalıyıq ki, əksər ölkələrdə paytaxt şəhəri qoşulan kimi artıq əhalinin 20 və ya 30 faizi əhatə edilmiş olur. Azərbaycanın bu şəhərləri hazırkı mərhələdə öhdəliyinə 1,3 milyon ton karbon qazının azaldılması öhdəliyini götürüb", - deyə qurum rəsmisi bildirib.

Azərbaycanda şəhərlərin enerji istehlakında əsas paya malik olması Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planının hazırlanmasına xüsusi aktuallıq qazandırır. Bu plan yerli icra strukturlarının iqlim dəyişmələrinin təsirlərinə qarşı konkret və sistemli tədbirlər görməsinə imkan yaradır.

Bu fikirləri isə tədbirdə Yerli Dayanıqlı İnkişaf üzrə koordinator, "Şəhər Merləri Razılaşması - Şərq"in yerli dayanıqlı inkişaf koordinatoru Maksim Vereşçak ifadə edib.

Maksim Vereşçak bildirib ki, Azərbaycan üçün iqlim riskləri arasında, xüsusilə ekstremal istilər ön plana çıxır. "Yay mövsümündə havanın kəskin istiləşməsi şəhərlərdə yaşayış şəraitinə, enerji sistemlərinə və ictimai infrastruktura ciddi təsir göstərir. Buna görə də SECAP çərçivəsində istilik dalğalarına qarşı uyğunlaşma tədbirləri müxtəlif sektorlar üzrə planlaşdırılmalıdır. SECAP sənədi yalnız iqlim dəyişmələrinin təsirinin azaldılmasını deyil, eyni zamanda, sosial məsələlərin həllini də nəzərdə tutur.", - deyə M.Vereşçak qeyd edib.

Maksim Vereşçak əlavə edib ki, "Şəhər Merləri Razılaşması" çərçivəsində hazırlanacaq bütün fəaliyyət planları iddialı hədəfləri əhatə etməlidir. Fikirlərinə

## Ölkədə ictimai binaların termal izolyasiyasının artan aktuallığı

davam edən M.Vereşçak vurğulayıb: "SECAP-da nəzərdə tutulan layihələr nəticə etibarilə ən azı 40 faiz karbon emissiyalarının azaldılmasına və minimum 30 faiz enerji istehlakına qənaətə nail olmalıdır. Məktəb, xəstəxana və digər ictimai binaların termal izolyasiyası Azərbaycan şəhərləri üçün ən effektiv alətlərdən biridir. Belə layihələr enerji xərclərini azaltmaqla yanaşı, binaların həm qışın soyuğuna, həm də yayın istisinə qarşı davamlılığını artırır və vətəndaşların həyat keyfiyyətinə birbaşa müsbət təsir göstərir. Avropa İttifaqının dəstəyi və mövcud proqramlar vasitəsilə Azərbaycan bələdiyyələri üçün bu fəaliyyət planının hazırlanması faktiki olaraq heç bir xərc tələb etmir və texniki dəstək tam təmin olunur".

*Mübariz ABDULLAYEV*

# Ukraynada prezident seçkiləri keçiriləcək?

## ABŞ tələb edir, Rusiya şərt qoyur...

Rusiya-Ukrayna müharibəsi ilə bağlı sülh prosesi beynəlxalq müstəvidə əsas müzakirələrdən biridir. Cari ildə ABŞ, Rusiya və Ukrayna nümayəndə heyətləri münaqişənin sülh yolu ilə həlli üçün iki dəfə görüş keçiriblər. Əbu-Dabidə baş tutan danışıqların birincisi 23-24 yanvarda, ikincisi isə 4-5 fevralda keçirilib. İkinci görüşün konstruktiv keçirildiyi bəyan olunsa da, faktiki olaraq nəticə əldə edilməyib. Növbəti görüş barədə konkret razılığın əldə olunmaması da bunu təsdiqləyir. Danışıqlarda iştirak edən ABŞ Prezidentinin xüsusi elçisi Stiven Uitkoff "X" sosial şəbəkəsində yazıb ki, məsləhətləşmələr zamanı döyüş əməliyyatlarının dayandırılması yollarını və atəşkəsə nəzarət mexanizmini müzakirə ediblər: "Nümayəndə heyətləri iki gün ərzində açıq qalan məsələləri, o cümlədən atəşkəsin həyata keçirilməsi yolları və döyüş əməliyyatlarının dayandırılmasının monitorinqi ilə bağlı geniş müzakirələr aparıblar".

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov isə Əbu-Dabidə üçtərəfli danışıqları "konstruktiv və mürəkkəb iş" kimi səciyyələndirib: "İki gün ərzində konstruktiv və eyni zamanda, çox mürəkkəb iş aparılıb. Bu iş davam etdiriləcək".

## "İstənilən razılaşma referenduma çıxarılacaq"

Ukrayna lideri Volodimir Zelenski hesab edir ki, yaxın gələcəkdə Kiyev, Moskva və Vaşinqton arasında danışıqlar ABŞ-da davam etdiriləcək. "Yaxın gələcəkdə, ehtimal ki, ABŞ-da əlavə görüşlər planlaşdırılır", - deyən Zelenskinin sözlərinə görə, Kiyev Rusiya-Ukrayna müharibəsinə effektiv şəkildə son qoya və etibarlı və davamlı sülhün bərqərar olmasına gətirib çıxara biləcək istənilən danışıqlar formatına hazırdır. O, deyib ki, bu müharibənin Rusiyanın təcavüzünü davam etdirməsi üçün heç bir stimul qoymayacaq şəkildə başa çatması vacibdir.

Bundan əlavə, "Reuters" agentliyinin öz mənbələrinə istinadən yaydığı məlumata görə, Vaşinqton və Kiyev may ayında Ukraynada ümumi seçkilərin keçirilməsi, eləcə də münaqişənin həlli üçün potensial razılaşmalar üzrə referendum imkanlarını müzakirə edirlər. Nəşrdə qeyd edildiyi kimi, rəsmilər tərəfindən müzakirə edilən plana əsasən, istənilən razılaşma referenduma çıxarılacaq. Eyni zamanda, Ukraynada ümumi seçkilərin keçirilməsi gözlənilir. Agentliyin məlumatına görə, Əbu-Dabidə danışıqlar zamanı ABŞ prezidentinin elçisi Stiven Uitkoff və Amerika liderinin kürəkəni Cared Kuşner Ukrayna tərəfinə bildiriblər ki, "ən yaxşısı seçkilərin tezliklə keçirilməsidir".

"The Financial Times" nəşri də ABŞ-ın bu möqeyi barədə yazıb. Nəşrin məlumatına görə, ABŞ-da hesab edirlər ki, Ukrayna mayın 15-dək prezident seçkilərini və Rusiya ilə sülh razılaşmaları üzrə referendum keçirməlidir. Bildirilib ki, ölkə üçün təhlükəsizlik zəmanətlərinin verilməsi bundan asılıdır. Nəşr planlaşdırmada iştirak edən ukraynalı və avropalı məmurlara, həmçinin digər şəxslərə istinadən qeyd edib ki, Ukrayna Prezidenti Volodimir Zelenski müharibənin dördüncü ildönümündə, fevralın 24-də prezident seçkiləri və referendum keçirilməsinə dair planını elan etmək niyyətindədir.

Məlumdur ki, ABŞ sülh prosesində Ukraynanın müəyyən güzəştlərə getməsinə çalışır. Kiyev bu güzəştlərə getmədikdə, Vaşinqton Ukraynada prezident seçkilərinin keçirilməsini gündəmə gətirib. Hətta Prezident Donald Tramp da ötən il bu barədə bir neçə dəfə danışıb və Zelenskini tənqid etmişdi. Onun sözlərinə görə, Ukrayna rəsmiləri yeni seçkilərin keçirilməsindən yayınmaq üçün müharibə məsələsindən istifadə edirlər. Bu təzyiqlər qarşısında Ukrayna Ali Radası ötən ilin dekabrında hərbi vəziyyət şəraitində mümkün prezident seçkilərinin hazırlanması üçün işçi qrupu yaradıb. Qrupun işində parlamentin bütün fraksiya və deputat qrupları, Mərkəzi Seçki Komissiyasının, həmçinin seçki məsələləri ilə məşğul olan ictimai təşkilatların nümayəndələri iştirak edir.

## Kiyev təhlükəsizlik zəmanəti istəyir

Nəzərə alaq ki, Ukrayna qanunvericiliyinə əsasən müharibə şəraitində seçkilərin keçirilməsi təxirə salınır. Lakin bu təzyiqlər qarşısında rəsmi Kiyev seçkilərin keçirilməsi üçün tədbirlər görməyə hazırlaşır. Ukrayna Prezidenti Zelenski hələ bir ay öncə prezident seçkilərini keçirməyə hazır olduğunu bəyan edib. Zelenski müharibənin onun "kreslodan yapışması" səbəbindən uzandığını iddia edənləri "tamamilə qeyri-adekvat" adlandırıb. Bununla belə, o, hesab edir ki, seçkilərin təhlükəsizliyinin təmin olunması və hərbi vəziyyət şəraitində seçki keçirilməsini qadağan edən qanunvericiliyin dəyişdirilməsi tələb olunur: "Seçkilər iki amildən asılıdır: təhlükəsizlik və qanunvericilik. Təhlükəsizlik - səsvermənin mümkün olması üçün əsas şərtdir. Məhz buna görə seçkilər müvəqqəti işğal olunmuş ərazilərdə keçirilə bilməz". Onun sözlərinə görə, Ukrayna beynəlxalq müşahidəçilər və xaricdə səsvermə ilə ədalətli və şəffaf seçkilər keçirə bilər. "Xaricdə çox sayda ukraynalının olması səbəbindən proses daha mürəkkəb olacaq, lakin XİN artıq bu məsələnin həlli üzərində işləyir. Bütün vətəndaşların, xüsusilə də cəbhədəki hərbçilərin səs vermək imkanına malik olması vacibdir. Bu, dövlətin təmin etməli olduğu əsas hüquqdur. Seçkilərin təhlükəsizliyi məsələsi beynəlxalq tərəfdaşlarla, o cümlədən ABŞ ilə müzakirə olunur. Mümkün variantlardan biri - ən azı, seçki dövründə atəşkəs və ya müharibənin bitməsidir", - deyə Zelenski əlavə edib.



## Rusiyanın şərti...

Qeyd edək ki, rəsmi Moskva Volodimir Zelenskini qeyri-legitim prezident hesab edir. Buna səbəb kimi, onun dövlət başçısı seçildiyi müddətin başa çatması göstərilir. Rusiya Prezidenti Putin ötən ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında ölkəsində yaşayan Ukrayna vətəndaşlarının da seçkidə iştirak hüququndan bəhs etmişdi. O, Ukraynada mümkün prezident seçkilərinin təhlükəsizliyini təmin etmək barədə düşünməyə hazır olduğunu deyib. Putinin sözlərinə görə, Rusiya seçkilər zamanı təhlükəsizliyi təmin etmək üçün Ukrayna ərazisinin dərinliklərinə zərbələr endirməyəcək. Ancaq Rusiya liderinin bir şərti var: "Əgər seçkilər keçirilərsə, Rusiyada yaşayan ukraynalılar üçün Rusiya ərazisində səsvermənin təşkil edilməsini tələb edirik". Görünür, Putin ümid edir ki, Rusiyada yaşayan ukraynalıların səsi hesabına Ukraynada prezident kürsüsündə rusiyayönümlü şəxs oturacaq. Təsadüfi deyil ki, o, hazırda Rusiyada 5 milyondan 10 milyona qədər Ukrayna vətəndaşının yaşadığını göstərən məlumatlara istinad edib. Rusiya liderinin bu tələbinə rəsmi Kiyev hələ münasibət bildirməyib. Əgər həqiqətən sözügedən tələb yerinə yetirilsə, Zelenskini çətin vəziyyət gözləyəcək.

P.S. Ukrayna Prezidentinin Ofisindən "The Financial Times" nəşrinin ölkənin fevralın 24-də seçkilərin və Rusiya ilə sülh razılaşmaları üzrə referendumun keçirilməsini elan edəcəyi barədə məqaləsini şərh edərək, təhlükəsizlik vəziyyətinin bu məsələdə əsas şərt olaraq qaldığını qeyd ediblər. "Təhlükəsizlik olmadıqca, elanlar da olmayacaq (seçkilər haqqında - red.)", - Prezident Ofisindəki mənbə bildirib.

*N.BAYRAMLI*

# “Dron divarı” ideyası yenidən Avropanın gündəmində...

## Səbəb Avropa İttifaqında dron təhlükəsi ilə bağlı narahatlığın artmasıdır

Son bir həftə ərzində Avropa mediasında yayımlanan icmallar göstərir ki, Avropa İttifaqında dron təhlükəsi ilə bağlı narahatlıq artır. Ötən ilin sonlarından başlayaraq Avropanın şərq hava sərhədlərinin dəfələrlə pilotsuz uçuş aparatları tərəfindən pozulması Avropa İttifaqı (Aİ) üçün mövcud müdafiə mexanizmlərinin yetərsiz olduğunu üzə çıxarıb. Bu vəziyyətə cavab olaraq Brüssel “dron divarı” adlandırılan yeni təşəbbüsü yenidən gündəmə gətirib. Söhbət fiziki baryerdən deyil, düşmən dronlarını vaxtında aşkar edib zərərsizləşdirməyə yönəlmiş rəqəmsal və texnoloji sistemdən gedir.

### “Dron divarı” bütün Aİ məkanını əhatə edəcək

Bu ideya Almaniya, Polşa, Finlandiya və Baltikyanı ölkələr arasında Rusiya ilə sərhəddə pilotsuz uçuş aparatlarına qarşı çoxqatlı monitorinq və avtomatlaşdırılmış müdafiə sistemlərinin yerləşdirilməsinə yönəlmiş birgə təşəbbüsdür. Əvvəlcə yalnız Avropa İttifaqının şərqindəki ölkələrdə həyata keçirilməsi nəzərdə tutulan “dron divarı” layihəsi indi bütün Avropanı əhatə edəcək şəkildə genişləndirilib. Bu barədə Aİ-nin Xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi Kaya Kallas bəyan edib. Onun sözlərinə görə, dronlar hər bir region üçün təhlükədir, kommersiya uçuşlarına mane olur və Avropa hava limanlarında problemlər yaradır.

Xatırladaq ki, “Dron divarı” layihəsi hələ ötən ilin oktyabrında Kopenhagendə keçirilən Avropa Siyasi Birliyinin 7-ci sammitində də müzakirə olunmuşdu. Lakin sammitin ilk günündə təhlükəsizlik məsələlərinin müzakirəsi həddindən artıq uzanıb və Aİ ölkələrinin liderləri heç bir razılığa gələ bilməyiblər. Görüş iştirakçılarının hamısı Aİ-nin Şərq cinahlarının potensial hava və dəniz təhdidlərindən qorunmasının zəruriliyi ilə razılaşıblar. Lakin ümumilikdə həm “dron divarı” və ya “dronlardan müdafiə divarı” kimi tanınan Avropa Komissiyasının təşəbbüsləri, həm də onların icra müddətləri ilə bağlı Aİ-nin 27 dövlət və hökumət başçısının mövqeyi üst-üstə düşməyib.

Məsələn, Macarıstanın Baş naziri Viktor Orban “Aİ səmasına daxil olan dronlara nə etmək olar?” sualına cavabında bildirib: “Vurun, sadəcə vurun, vəssalam”. Almaniya Kansleri Fridrix Merts və Fransa Prezidenti Emmanuel Makron ümumiyyətlə, “divar” yaratmaq ideyasına dair kifayət qədər skeptik fikirlər səsləndiriblər. Hər ikisinin fikrincə, bu məsələlərə daha realist yanaşmaq lazımdır. Vəziyyətin daim dəyişməsi, texnologiyaların sürətlə inkişafı göstərir ki, ideya hələ reallaşmağa başlamazdan əvvəl köhnələ bilər.

Rumıniyanın müdafiə naziri Radu Miruçe də hesab edir ki, “dron divarı” ideyası real deyil: “Bizdə, hələlik belə divar yoxdur. Polşada və ya şimal ölkələrində divar yoxdur. Bu dron divarı kiminsə kompüter oyununda olduğu kimi, heç bir şeyin nüfuz etmədiyi pərdəni endirməsidir - bu utopiyadır. Belə bir şey yoxdur”. Miruçe əlavə edib ki, Rumıniya Ordusu PUA-ların ölkəyə daxil olmasının qarşısını almaq üçün vəziyyətdən asılı olaraq hava hücumundan müdafiə avadanlıqlarını daim hərəkət etdirir. “Biz Dunayın o biri tərəfində baş verənlərdən asılı olaraq yaşayış məntəqələrini qoruyur və yerüstü avadanlıqları hərəkət etdiririk”, - deyə o bildirib.



### Layihə nə vaxt reallaşa bilər?

Lakin Aİ-nin müdafiə və kosmos məsələləri üzrə komissarı Andryus Kubilyus hesab edir ki, Avropanın “dron divarı” layihəsi bir il ərzində həyata keçirilə bilər. “Biz başa düşməliyik ki, pilotsuz uçuş aparatlarını aşkar etmək üçün kifayət qədər imkanlarımız yoxdur. Qırıcıları və raketləri aşkarlamaq üçün yaxşı vasitələrimiz ola bilər, lakin dronların özünəməxsus xüsusiyyətləri var - onlar çox kiçikdir və son dərəcə alçaqdan uçurlar”, - deyən komissar əlavə edib ki, belə bir sistemin təxminən bir il ərzində hazır olacağı və Rusiyanın hücumları və təxribatlarını dəf edə biləcəyi ehtimal olunur.

A.Kubilyusun sözlərinə görə, dronlarla mübarizədə daha bir variant lazerlərdir. Üstəlik, vaxtaşırı olaraq bəzi Aİ ölkələrinin ərazisində dronların müşahidə olunmasını nəzərə alaraq, belə bir müdafiə şəbəkəsi blokun geniş dəniz sərhədlərini də əhatə etməlidir. O deyib ki, “dron divarı” üç əsas komponentdən ibarət olacaq bu irimiqyaslı layihənin bir hissəsi olacaq: “Birincisi, sərhədlərdə hərəkət əleyhinə vasitələrin daxil olduğu “quru divar”dır. İkincisi, son zamanlar dronlardan istifadə edilməklə artan təxribatların qarşısını almaq üçün nəzərdə tutulmuş “dron divar”dır. Üçüncüsü, məsələn, Rumıniya və Bolqarıstan kimi ölkələri dənizdən gələcək təhlükədən qorumaq üçün lazım olan “dəniz divarı”dır”.

### “Rusiya Aİ və NATO-nun möhkəmliyini sınaqdan keçirir”

Komissarın fikrincə, Rusiya Aİ və NATO-nun möhkəmliyini sınaqdan keçirir və bizim cavabımız qəti, vahid və dərhal olmalıdır. O bildirib ki, prioritet elementi “dron divarı” olacaq “Şərq Cinahın Müşahidəsi” layihəsi bütün Avropanın maraqlarına uyğun həyata keçiriləcək: “Cəbhə”dəki tərəfdaşlarla birlikdə və Ukrayna təcrübəsini nəzərə alaraq tərəflər pilotsuz uçuş aparatlarının aşkarlanması, izlənilməsi və ələ keçirilməsinin qabaqcıl vasitələrini birləşdirəcək sistem üçün ümumi baxış hazırlayıblar”.

Beləliklə, uzun müddət kağız üzərində qalan layihə son insidentlərdən sonra sürət qazanıb. Dronların mülki hava limanlarının fəaliyyətinə mane olması və hərbi obyektlər üzərində müşahidə edilməsi maliyyə resurslarının və siyasi iradənin formalaşmasına səbəb olub. Avropa Komissiyası artıq təşəbbüsün genişləndirilməsini və onun Avropanın şərq sərhədlərindən kənara çıxaraq bütün qitəni əhatə etməsini təklif edib. Layihə yaxın vaxtlarda açıqlanması gözlənilən müdafiə hazırlığı planına daxil ediləcək. Bununla belə, “dron divarı” anlayışı özü müəyyən suallar yaradır. Təhlükənin dinamik xarakter daşıdığı şəraitdə statik sistemlərin effektivliyi müzakirə mövzusudur. Hələlik hansı tip dronlara qarşı müdafiə qurulacağı, texnologiyanın nə dərəcədə çevik olacağı və sistemin tez köhnəlməsinin qarşısının necə alınacağı aydın deyil.

Mütəxəssislər bildirirlər ki, əsas hədəf dronları mövcud usullardan daha ucuz və effektiv şəkildə zərərsizləşdirmək olmalıdır. Bu isə yeni texnologiyalarla yanaşı, genişmiqyaslı kadr hazırlığı və təlim proqramları tələb edir. İlkin hesablamalara görə, layihənin dəyəri təxminən 1 milyard avro ola bilər. Rəqəmin artması da istisna edilmir.

**N.BAYRAMLI**

# Yazılmamış epopeyanın xülasəsi

## Professor Müseyib İlyasovun “Maarif fədaisi: Müseyib İlyasov” adlı kitabı üzərində gəzişmələr

əvvəli ötən sayımızda

Kitabda müəllif İlyaslar nəslinin bizə bəlli bütün qolları, tirələri, keçmiş-keçəni, törəmələri haqqında məlumat verir, sovet dövrü dünyaya gəlmiş sonuncu nəsillərin nümayəndələrini belə imkan çərçivəsində yaddan çıxarmır. Üstəlik, doğma Oğuldərə kəndinin ilin dörd fəslinə xas mənzərələrini, zəngin fauna-florasını bədii dillə təsvir eləməklə oxucunu faktların, sənədlərin “zəhmindən”, ağırlığından qurtarmağa çalışır.



*Şuşa Müəllimlər Seminariyası*

***

1893-cü il təvəllüdlü Müseyib Kərbəlayı İbrahim oğlu İlyasov Minkənd rus-tatar məktəbini bitirəndən sonra 1906-1907-ci illərdə Şuşada Haşım bəy Vəzirovun müdiri olduğu qəza məktəbində oxuyur. Elm öyrənməyə həvəsi, çalışqanlığıyla diqqət çəkdiyinə görə böyük ədəbiyyatşünas, maarifçi, pedaqoq Firidun bəy Köçərli başqa bir neçə gənclə birgə onun da təhsilini Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında davam etdirməsini məsləhət bilir. Qoridə təhsil almağa 1908-ci ildə başlayan Müseyib seminariyanı 1912-ci ildə bitirir. Bundan sonra vətənə qayıdıb, üç il Bakıdakı ikinci rus-tatar məktəbində müəllim işləyir. 1915-ci ildə öz ərizəsiylə tutduğu vəzifədən azad olunur.

Kitabın “Müseyib İlyasovun pedaqoji fəaliyyəti” adlı bölməsində müəllif daha sonra yazır: “1915-18-ci illərdə Müseyib İlyasov Xosrov bəy Sultanovla birlikdə onun rəhbərlik elədiyi xeyriyyə cəmiyyətinin xəttiylə İrana və Türkiyəyə getmiş, aclıq çəkən yoxsul əhaliyə yardımlar göstərmişdi. Atam deyirdi ki, buradan qızıl pul aparıb, orada daha çox taxıl alıb camaata paylayırmışlar. Azərbaycanda hakimiyyət dəyişikliyi ilə əlaqədar geri qayıdanda xərclənməmiş iyirmi kilo qızılı gətirib Bakıda banka təhvil verib. Deyirdi əmimdən soruşduq ki, onu tələb eləyirdilər, yoxsa özünüz verdiniz? Dedi ki, heç kim istəmirdi, özüm aparıb verdim. Soruşduq ki, verməyə bilərdin? Onda cavabı sərt oldu: - Heç elə şey olardı? Mənə etibar eləmişdilər, o pul xalqın puludu, xalqa da qaytarılmalıydı”.

***

1920-ci ildə Şuşa şəhərində açılan Müəllimlər Seminariyasının - darülmüəllimin ilk yaradıcısı, təşkilatçısı da Müseyib İlyasov olmuş, seminariyanın ilk direktoru kimi 1925-ci ilə qədər bu vəzifədə çalışmışdı. Onun rəhbərliyi dövründə sonralar bütün ölkənin tanıyacağı görkəmli şəxslər - Süleyman Rəhimov, Əli Vəliyev kimi Azərbaycan sovet ədəbiyyatının birinci nəslinə mənsub yazıçılar bu seminariyada təhsil almışdılar. Süleyman Rəhimov hətta illər sonra (1931-32) özü də Şuşa Pedaqoji Texnikumunun direktoru olmuşdu - yazıçının xatirələrində həmin dövrlə bağlı çox maraqlı məqamlar var. Əli Vəliyev də bir ara Şuşa seminariyasında müəllim işləmiş, sonralar Laçın rayonunda maarif şöbəsinin müdiri vəzifəsində çalışmışdı. Kitabın müəllifi Müseyib müəllimin atası İbrahim İlyasov da əmisi Müseyibin təşkilatçılığıyla yaradılmış seminariyanın ilk məzunlarından olmuşdu.

1974-cü ildə Şuşa şəhərində pedaqoji texnikumun ilk buraxılışının 50 illiyi təntənəylə qeyd olunub. Həmin tədbirdə Müseyib İlyasovun qızı, o zaman Təhsil Nazirliyində metodist vəzifəsində işləyən Firuzə İlyasova da iştirak eləyib...

1924-cü ildə mərkəzi Laçın şəhəri olmaqla Kürdüstan qəzası yaradılandan sonra Müseyib əfəndi (onu belə də çağırarmışlar) qəza maarif şöbəsinin müdiri təyin olunur, bu vəzifədə çalışdığı beş il ərzində bölgədə əhalinin savadlanması, məktəblərin açılması yolunda böyük fədakarlıq, əvəzsiz xidmət göstərir. 1930-cu ildə o, Bakıya qayıdıb üç il respublika Maarif Komissarlığında işləyir. 1934-də maarif şöbəsinin müdiri qismində yenidən Laçın rayonuna göndərilir, ancaq nədənsə altı ay keçmiş yenə Bakıya dönüb fəaliyyətinə paytaxtda davam eləyir. Sonrakı dövrdə Azərbaycan SSR Xalq Maarif Komissarlığında bir sıra məsul işlərdə, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun rus dili kafedrasında müəllim vəzifəsində çalışır. Həmin illərdə Laçın rayonunda əhalinin etnik tərkibinin öyrənilməsi məqsədilə təşkil olunan xüsusi ekspedisiyanın işində fəal iştirak eləyir. Bütün bunlarla yanaşı, Müseyib əfəndi 1926-cı ilin fevral-mart aylarında Bakıda keçirilmiş I Türkoloji Qurultayın da iştirakçısı olub. Sonralar onun repressiyaya uğramasında yəqin ki, bu faktın özü də bəlli bir rol oynayıb.

***

Kitabın “Müseyib İlyasovun ailəsi” adlı fəslində müəllif yazır: “1918-ci ildə o, zadəgan nəslindən olan bir xanımla ailə qurur. Bu evliliyin də maraqlı tarixçəsi var.

Həmin vaxt Rusiyadan Azərbaycana bir qrup adam gəlir. Onların arasında bir qız yolda bütün sənədlərini itirir. Qıza məsləhət görürlər ki, Müseyib müəllimə müraciət eləsin. Müseyib əfəndi ona sənədlərini düzəltməkdə kömək göstərib qızı işə götürür. Bir müddətdən sonra ona deyir: “Mənim qardaşım Gəncədə olur (həmin vaxt Molla Zülfüqar təqibdən yayınmaq üçün Gəncədə yaşayırdı), sənə bir məktub versəm, onu mənim qardaşıma aparıb çatdıra bilərsənmi?” Qız razılaşır. Müseyib əfəndi əski əlifbayla bir məktub yazıb verib onu yola salır. Zülfüqar qızı üç gün evində qonaq saxlayır, sonra məktuba cavab yazıb onu Şuşaya qardaşına göndərir. Məktubda belə yazılıbmış: “Bu qızın hərəkətləri, davranışı xoşuma gəldi. Əgər islam dinini qəbul edərsə, onunla evlənməyinə etirazım yoxdur”. Sən demə, Ziba başqa millətdən olduğuna görə Müseyib din xadimi qardaşından onunla evlənməyə icazə istəyibmiş”.



*M.İlyasov şagirdləri ilə birlikdə*

Bundan sonra Müseyib əfəndi həm öz niyyətini, həm də qardaşının fikrini açıb qıza deyir. Qız razılaşır. Şuşalı bir din xadimi ona bir müddət təlim keçir, dilimizi, dinimizi, ayinlərimizi, adətlərimizi öyrədir. Bütün bunlardan sonra qıza müsəlman adı verib Şuşa məscidində and içdirir, Ziba xanımın kəbinini Müseyibə kəsirlər:

“Ziba nənə həqiqətən xanım-xatın qadın idi. Azərbaycan dilində sərbəst danışırdı, ləhcəsi belə duyulmurdu. Müseyibin, demək olar, savad dalınca düşən bütün qardaşı uşaqları təhsil illərində onun evində olmuş, Ziba xanım onların hər birinin əziyyətini çəkmişdi. Mən Ziba nənənin ailə albomuna, uşaqkən ata-anası, bacı-qardaşıyla çəkdirdiyi şəkillərə baxanda onun həqiqətən də zadəgan, aristokrat bir ailədən çıxdığına inandım. Öyrəndim ki, Ziba xanımın illər əvvəl Azərbaycana gəlməsinin başlıca səbəbi də vətəndaş müharibəsi qoynunda çalxanan Rusiyadakı dözülməz vəziyyət, valideynlərinin zadəgan olduqlarına görə bolşeviklər tərəfindən təqibə məruz qalması olub. Bunu da deyim ki, Ziba xanım o zadəganlığı, kübarlığı 1972-ci ilin 31 mayına - ömrünün sonuna qədər qoruyub saxladı”.

davamı növbəti sayımızda



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Güclü cəmiyyətin və dövlətin təməli...

## Hüquqi dövlət quruculuğunda vətəndaş cəmiyyətinin rolu vacibdir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu” istiqaməti üzrə hazırlanmışdır**



*Yeganə BAYRAMOVA*

Müasir dünyanın inkişaf xəritəsinə nəzər saldıqda bir həqiqət aydın görünür: harada vətəndaş cəmiyyəti güclüdürsə, orada hüquqi dövlət də möhkəmdir. Harada qanunun aliliyi təmin olunursa, orada insan ləyaqəti, azad fikir və ədalət prinsipləri qorunur. Vətəndaş cəmiyyəti ilə hüquqi dövlət bir-birini tamamlayan, bir-birini gücləndirən iki əsas sütundur.

Vətəndaş cəmiyyəti hüquqi dövlətin qurulmasında nəzarət və təşəbbüs funksiyasını yerinə yetirir. O, ictimai rəy formalaşdırır, problemləri gündəmə gətirir, islahatlara təkan verir. Hüquqi dövlət isə vətəndaş cəmiyyətinin sərbəst fəaliyyətinə hüquqi zəmin yaradır, təhlükəsiz mühit təmin edir.

Bununla yanaşı, sabahın tələblərinə cavab vermək üçün sözügedən sahələrdə daim yeniliklərin və islahatların həyata keçirilməsi zəruridir ki, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu daha da möhkəmlənsin. Ötən illər ərzində Azərbaycanda bu istiqamətdə aparılan islahatlar nəticəsində vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu xeyli dərəcədə inkişaf edib. Bunun nəticəsidir ki, ölkəmizdə bütün sahələr üzrə ictimai-siyasi sabitlik və hüququn aliliyi təmin olunub.

Mövzunu “Yeni Azərbaycan”a şərh edən hüquqşünas Nadir Məmmədovun sözlərinə görə, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu bir millətin demokratik inkişaf yolunun əsas göstəricisidir. O, qeyd edib ki, güclü və ədalətli dövlət yalnız idarəetmə mexanizmləri ilə deyil, həm də şüurlu, fəal və məsuliyyətli vətəndaşlarla qurulur: “Vətəndaş cəmiyyəti dedikdə, dövlət strukturlarından kənarda fəaliyyət göstərən, lakin cəmiyyətin sosial, iqtisadi, mədəni və hüquqi həyatında mühüm rol oynayan institutların və fərdlərin məcmusu nəzərdə tutulur. Qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri, ictimai birliklər, müstəqil ekspertlər və fəal vətəndaşlar vətəndaş cəmiyyətinin əsas subyektləridir. Bu qurumlar cəmiyyətin maraqlarını ifadə edir, ictimai nəzarəti həyata keçirir və dövlətlə vətəndaş arasında körpü rolunu oynayır. Hüquqi dövlət isə fəaliyyətini hüquq normaları əsasında quran, insan hüquq və azadlıqlarını ali dəyər kimi tanıyan, qanunun aliliyini təmin edən dövlət modelidir. Hüquqi dövlətdə heç bir orqan, vəzifəli şəxs və ya vətəndaş qanundan üstün ola bilməz. Məhz bu prinsip cəmiyyətdə ədalətin, şəffaflığın və sosial etimadın formalaşmasına zəmin yaradır. Həmçinin qanunların hamı üçün bərabər tətbiqi və müstəqil məhkəmə sisteminin mövcudluğu hüquqi dövlətin əsas sütunları sayılır”.

N.Məmmədov bildirib ki, vətəndaş cəmiyyətinin inkişafı hüquqi dövlət quruculuğuna mühüm töhfə verir. Çünki fəal və məlumatlı vətəndaşlar öz hüquqlarını bilir, onları qorumağı bacarır və dövlət idarəçiliyində iştirak etməkdən çəkinmirlər: “Bu isə öz növbəsində dövlət orqanlarının məsuliyyətini artırır, idarəetmədə şəffaflığı gücləndirir. İctimai nəzarət mexanizmləri korrupsiyanın qarşısının alınmasında və qərarların daha obyektiv qəbul edilməsində mühüm rol oynayır. Eyni zamanda, hüquqi dövlət də vətəndaş cəmiyyətinin sərbəst fəaliyyət göstərməsi üçün əlverişli mühit yaradır. Söz və ifadə azadlığı, birləşmək hüququ, sərbəst toplaşmaq azadlığı kimi fundamental hüquqlar təmin olunduqda vətəndaş cəmiyyəti institutları daha effektiv fəaliyyət göstərə bilir. Qanunvericiliyin aydın və ədalətli olması ictimai təşəbbüslərin qarşısını alan süni maneələri aradan qaldırır. Azərbaycan üçün də vətəndaş cəmiyyətinin gücləndirilməsi və hüquqi dövlət prinsiplərinin möhkəmləndirilməsi strateji əhəmiyyət daşıyır. Dövlət-vətəndaş dialoqunun genişləndirilməsi, ictimai iştirakçılığın təşviqi və hüquqi islahatların davam etdirilməsi bu istiqamətdə atılan mühüm addımlardır. Xüsusilə gənclərin ictimai proseslərə cəlb olunması cəmiyyətin gələcək inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu qarşılıqlı şəkildə bir-birini gücləndirən anlayışlardır. Hüquqa əsaslanan, ədalətli və şəffaf dövlət idarəçiliyi yalnız fəal və məsuliyyətli vətəndaşların mövcudluğu şəraitində mümkündür. Bu balans qorunduğu halda cəmiyyətin davamlı inkişafı, sosial rifah və demokratik dəyərlərin möhkəmlənməsi təmin edilə bilər”.

Hüquqşünas vurğulayıb ki, vətəndaşlarımızın hüquqi mədəniyyət səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işlər günü-gündən artır: “Təbii ki, yeni çağırışlar var. Dünyada bir çox sistem, qəbul edilmiş qərarlar, qanunlar sürətlə dəyişir. Dünyada siyasi mənzərə də yenidən formalaşdırılır. Buna uyğun olaraq dövlətlər milli fəaliyyət proqramlarını yeniləyirlər. Azərbaycan dövləti də bu məsələlərə həssas yanaşır. Dövrün tələblərinə uyğun yeni qanunların qəbul edilməsi, yeni təkliflərin verilməsi labüddür. Həmişə də belə olacaq. Bu yolda Azərbaycan dünyanın bir çox aparıcı dövlətləri sırasındadır. Cəmiyyət inkişaf etdikcə bütün bu məsələlər həmişə dövlətin əsas diqqət mərkəzində olan, prioritet vəzifə kimi qalacaq”.

# “Üç bacı”dan ən kiçiyi...

## Bahar müjdəli kiçik çillə

*Yeganə BAYRAMOVA*

Qış fəsli yalnız soyuq, şaxta demək deyil. Bu aylar xalq yaddaşında zamanın sınağı, təbiətlə insanın səbir yarışıdır. Həmin sınağın ən maraqlı mərhələlərindən biri də kiçik çillədir. Böyük çillənin sərt və amansız günlərindən sonra gələn kiçik çillə, sanki, qışın öz gücünü bir daha sınamaq istədiyi, amma artıq yorulduğu bir dövrdür. Bu çillə nə qədər soyuq olsa da, içində gizli bir nəzarət, bahar nəfəsi duyulur.

Xalq təqviminə görə, qış fəsli 3 hissəyə bölünür: Böyük çillə 40 gün, kiçik çillə 20 gün çəkir. Onlardan sonra Novruz bayramınadək qalan 30 gün boz ay adlanır. Bu təqvimlə dekabrın 21-dən yanvarın 31-dək böyük çillə, yanvarın 31-dən fevralın 21-dək kiçik çillə, fevralın 21-dən martın 21-dək Boz ay davam edir.

Bəzi bölgələrimizdə Böyük çillədən kiçik çilləyə keçəndə müəyyən mərasimlər təşkil olunur. Kiçik çillənin birinci ongünlüyündə Xıdır Nəbi bayramı keçirilir, qovurğa qovrulur, hədik və digər yeməklər bişirilir. “Çillə” sözü - ağrı, acı, çətinlik, məşəqqət, sıxıntı mənasını ifadə edir. Çillədən çıxmaq ağrıdan, acıdan çıxmaq deməkdir. Kiçik çillə böyük çillədən fərqli olaraq çətin dönəm kimi anlaşılır. Xalq arasında belə bir deyim var: “Böyük çillə yerə sancar, kiçik çillə sümüyə işləyər”. Bu ifadə təkcə havanın soyuqluğunu yox, həm də həyatın çətinliklərini, dözümlülüyü simvolizə edir.



Xalq inanclarına görə, kiçik çillə böyük çillədən fərqli olaraq, daha hiyləgərdir. Bir gün Günəş üzünü göstərər, ertəsi gün şaxta yenidən hökmünü sürər. El arasında “kiçik çillə aldatdı” deyimi də məhz bu dəyişkən xarakterdən yaranıb. Təbiətin bu qeyri-sabit davranışı kənd təsərrüfatı ilə məşğul olan insanlar üçün həmişə diqqət mərkəzində olub. Çünki kiçik çillənin hər günü torpaqla bağlı qərarların, səbrin və müşahidənin sınağı sayılıb.

“Çillə çıxmamış bahara bel bağlama” deyimi bu gün də aktuallığını qoruyur. Bu, xalqın təbiətlə apardığı uzunmüddətli müşahidələrin nəticəsi olan bir həyat dərsidir.

Qeyd etdiyimiz kimi, kiçik çillə dövrü xalqın məişətində, adət-ənənələrində də öz əksini tapıb. Keçmişdə bu günlərdə insanlar daha çox ev işləri ilə məşğul olar, ailə süfrələri ətrafında toplaşar, nağıl və dastanlara qulaq asardılar. Qış gecələri sözün, yaddaşın və birliyin qorunduğu zaman idi. Bu baxımdan, kiçik çillə həm də milli-mənəvi dəyərlərin ötürüldüyü mühüm bir mərhələ sayılır.

Bu gün müasir həyat tərzi, texnologiyanın inkişafı, şəhər həyatının sürəti bizi təbiət ritmlərindən bir qədər uzaq salsa da, kiçik çillə anlayışı hələ də xalq düşüncəsində yaşayır. Çünki bu anlayış sadəcə hava hadisəsi deyil, həyat fəlsəfəsidir. Səbir etməyi, gözləməyi, zamanın hökmünə hörmətlə yanaşmağı öyrədir.

Kiçik çillə bizə xatırladır ki, qış nə qədər sərt olsa da, bahar mütləq gəlir. Əsas olan bu keçid dövrünü anlayışla, səbirlə və ümidlə qarşılamaqdır. Təbiətin bu sükutlu, soyuq, amma mənalı günləri insanı özü ilə baş-başa qoyur, onu düşünməyə vadar edir. Kiçik çillə - qışın son sınağı, baharın isə ilk vədi kimi yaddaşımıza həkk olunur. Və bu vəd xalqımızın minillik yaddaşında hələ uzun illər yaşayacaq.

# “Azercell Biznes” korporativ müştərilər üçün İoT və M2M platformasını təqdim edir




Azercell korporativ müştərilər üçün nəzərdə tutulmuş “Azercell Biznes” rəqəmsal ekosistemi çərçivəsində İoT və M2M platformasını təqdim edib. Platforma müştərilərə IoT və M2M cihazlarının vahid mərkəzdən idarə olunması, real vaxt rejimində nəzarət və əməliyyat səmərəliliyinin artırılması üçün çevik imkanlar verir.

Yeni həll M2M cihazlarının statusunun və trafik istifadəsinin real vaxt rejimində idarə olunmasını,hovuz internet balanslarının tənzimlənməsini və xərclərin optimallaşdırılmasını mümkün edir. Bu yanaşma müəssisələrə müxtəlif layihələr üzrə əməliyyat risklərinin azaldılmasını və resurslardan daha səmərəli istifadə edilməsini də təmin edir.

IoT və M2M həlli logistika, nəqliyyat, istehsal, maliyyə, satış, neft-qaz, eləcə də ağıllı şəhər layihələri daxil olmaqla bir çox sahələrdə tətbiq oluna bilər. Platforma müştəri yönümlü, çevik interfeys, yüksək təhlükəsizlik standartları və genişlənə bilən arxitektura ilə seçilir. Bu xüsusiyyətlər mövcud IoT layihələrinin rahat idarə olunması ilə yanaşı, yeni nəsil həllərin də asanlıqla platformaya inteqrasiyasını mümkün edir.

Qeyd edək ki, Azercell bu təşəbbüslə ölkədə rəqəmsal transformasiyanın sürətlənməsinə və ağıllı texnologiyaların tətbiqinə töhfə verməyə davam edir.

# UNICEF: Dünyada 200 milyondan çox uşaq humanitar yardıma möhtacdır

BMT-nin Uşaq Fondu (UNICEF) çərşənbə axşamı bildirib ki, 130-dan çox ölkədə 200 milyondan çox uşağın 2026-cı ildə humanitar yardıma ehtiyacı olacaq. Bu, uşaqların üzləşdiyi ən ağır qlobal böhranlardan biridir.

AZƏRTAC BMT-nin məlumatına istinadla xəbər verir ki, UNICEF-in İcra Şurasının ilk müntəzəm iclasında çıxış edən Fondun rəhbəri Ketrin Rasselin sözlərinə görə, münaqişələr, iqlim şokları, iqtisadi qeyri-sabitlik və bərabərsizlik dərinləşməyə davam etdikcə, dünya miqyasında uşaqların üzləşdiyi çətinliklərin miqyası və mürəkkəbliyi daha da artır. O vurğulayıb: “Bu gün uşaqların üzləşdiyi humanitar vəziyyət indiyə qədər gördüyümüz ən ağır vəziyyətlərdən biridir, 130-dan çox ölkədə 200 milyondan çox uşağın 2026-cı ildə humanitar yardıma ehtiyacı var”.

Rassel bildirib ki, uşaqlar üçün qlobal mühit getdikcə daha da çətinləşir, ehtiyaclar artdıqca və resurslar azaldıqca ailələrə və icmalara təzyiqlər artır. O əlavə edib: “Son bir ildə çoxtərəfli sistemin gələcəyi, beynəlxalq yardımın dəyəri və effektivliyi, ən çox ehtiyacı olanlara, xüsusən də uşaqlara qayğı göstərmək üçün kollektiv məsuliyyət ilə bağlı çətinliklərlə qarşılaşdıq. 2025-ci il bu əsrdə uşaq ölümlərinin artdığı və nəsillərin irəliləyişini geriyə doğru dəyişdiyi ilk ildir”.



Fondun rəhbəri humanitar ehtiyacların artmağa davam etməsinə baxmayaraq, uşaq və ana sağlamlığının UNICEF üçün əsas prioritetlər olaraq qaldığını vurğuladı. “Münaqişələr, iqlim şokları, iqtisadi qeyri-sabitlik və bərabərsizlik uşaqlara, ailələrə və icmalara böyük təzyiq göstərir”, - deyə o bildirib.

Uşaqlara qarşı zorakılığın kəskin artdığını vurğulayan Rassel ötən il azyaşlılara qarşı indiyə qədər sənədləşdirilmiş ən yüksək sayda təsdiqlənmiş ağır pozuntuların, o cümlədən qətllərin, adam oğurluğunun və cinsi zorakılığın qeydə alındığını vurğulayıb.

Rassel qeyd edib ki, UNICEF 190-dan çox ölkə və ərazidə fəaliyyət göstərir. O, həyati əhəmiyyətli işləri davam etdirmək üçün daha güclü tərəfdaşlıq və islahatlara çağırıb. “Maliyyələşdirmə, islahat və tərəfdaşlıqla bağlı etdiyimiz seçimlər qarşıdakı illərdə uşaqlar üçün mümkün olanları təmin edəcək”, - deyə UNICEF-in rəhbəri bildirib.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4764**
**Sifariş: 216**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova